# 9 NOYABR DÖVLƏT BAYRAĞI GÜNÜDÜR




Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 253 (7980) CÜMƏ, 9 noyabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik




# Heç zaman enməyəcək müstəqillik rəmzi

## Kölgənin düşdüyü hər yer vətəndir

**Bu ay, ulduz, boyaların qurultayı nə demək?**
**Bizcə böylə söyləmək:**
**Bu göy boya Göy Moğoldan qalmış bir türk nişanı,**
**- Bir türk oğlu olmalı!**
**Yaşıl boya islamlığın sarsılmayan imanı,**
**- Ürəklərə dolmalı!**
**Şu al boya azadlığın, təcəddüdün fərmanı,**
**- Mədəniyyət bulmalı!**
**Səkkiz uclu şu ulduz da səkkiz hərfli OD YURDU**
**Əsarətin gecəsindən fürsət bulmuş quş kibi**
**- Səhərlərə uçmuşdur!**
**Şu hilal da türk bilgisi, düzgün sevgi nişanı,**
**- Yurdumuzu qucmuşdur!**

Bu misralar böyük dramaturqumuz Cəfər Cabbarlının 29 avqust 1919-cu ildə “Azərbaycan” qəzetində çap edilən “Azərbaycan bayrağına” şeirindən bir parçadır...

O bayraq ki, tarixin gerçəkliyindən, cəng meydanında igidlərin nərəsindən, milyonların arzusundan, şəhid övladlarının qanından yoğrularaq yüksəklərə, çox ucalara, lap elə göylərin bağrına sancılaraq dalğalanır...

Vaxtilə Fəratdan Qəndəhara, Qafqazdan Hind okeanınadək uzanan 3 milyon kilometrlik ərazilərdə dalğalanan bayraqların balası bayrağım, kölgənin düşdüyü hər yer vətəndir!.. And yerimizsən...

Əsir həyatı da yaşamısan, qaçaq da olmusan, səni buxovlamaq istəyiblər, amma çox məğrursan, bayrağım, heç zaman əyilməmisən!..

Yoxdan var olmusan, sevənlərinin ürəyindəki bir qığılcımdan alovlanmısan, şölələrin işıq saçıb gələcək yollarımıza...

Və ən çətin zamanlarda, çıxılmaz durumlarda belə bilirdin ki, “Bir kərə yüksələn bayraq bir daha enməz...”

### Bayraqların sancıldığı yer...

Hər bir xalqın qüdrətini bildirən, fərqləndirici nişan sayılan “bayraq” ümumtürk mənşəli sözdür və tarixi çox qədimdir. Tədqiqatçıların fikrincə, bu söz batır (“batırmaq”, “sancmaq”) feilindən törəmişdir. Ulu babalarımız həmişə bayrağa sancaq deyiblər, yəni “sanc” mənasında. Qəhrəmanlarımızın döyüşlərdə öz bayraqlarını sancdıqları yer onlar üçün məkana, vətənə çevrilib.

Tarixi qaynaqlara əsasən Azərbaycan bayrağının tarixi çox qədimlərə gedib çıxır və hələ dünyanın bir çox ölkələrində dövlət, millət anlayışının formalaşmadığı bir vaxtda onun qədim dövləti də olub, bayrağı da...

Azərbaycanda bayraqların meydana gəlməsi bizim eradan əvvəlki əsrlərə aiddir. Təxminən beş min ilə qədər dövlətçilik tarixinə malik Azərbaycanda arxeoloji tapıntılara əsasən bayrağın ilkin formalarından hələ Tunc dövründə (m.ə. IV-II minilliklər) istifadə edilməsi məlumdur. Şəmkir və Şəki rayonlarında tapılmış buynuzlu maral, üzərində səkkizguşəli ulduz, şüalanan günəş və müxtəlif həndəsi naxışlar olan bu bayraq nümunələri qəbilə başçısı və ya hökmdarların hakimiyyət rəmzi idi. Azərbaycanda aşkar edilmiş bu növ bayraqların əksəriyyəti taxta sapa taxılmış buynuzlu heyvan təsvirləri olmuşdur. Manna qalalarını təsvir edən m.ə. VIII-VII əsrlərə aid Assuriya divar rəsmlərində də onlara rast gəlmək olar.

Tarixin müxtəlif dövrlərində Azərbaycan ərazisində güclü dövlətlər mövcud olmuşdur. Bunların sırasında Azərbaycanın Şirvanşahlar, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər kimi güclü dövlətləri tariximizdə silinməz izlər qoyub. Bu dövlətlərin hər birinin müstəqillik rəmzi olan bayraqları da var idi. Bəzilərinin üzərində qurd başı, ağ, qara qoç, şir, günəş təsvir edilib, bəzilərində yaşıl rəng üstünlük təşkil edib. O cümlədən, Qarabağ, Şəki, Bakı, İrəvan xanlıqlarının da özlərinə məxsus bayraqları olub ki, onlardan bəzilərinin nümunələri bu gün də hifz olunur.

### Bir zərrədən alovlandı...

Yüz il əvvəl - 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qaldırılan bayraq isə xalqımızın tarixində misilsiz rol oynadı...

21 iyun 1918-ci ildə Fətəli xan Xoyskinin rəhbərlik etdiyi hökumətin qərarı ilə üzərində ağ rəngli aypara və səkkizguşəli ulduz təsviri olan qırmızı rəngli bayraq Azərbaycan Cümhuriyyətinin dövlət bayrağı kimi qəbul edilir. Lakin ingilislər bu bayraq dəyişdirilmədiyi təqdirdə Azərbaycanı müstəqil dövlət kimi tanımayacaqlarını, Osmanlının əyaləti hesab edəcəklərini bildirirlər.

Ardı 3-cü səh.

# Muğamın böyük himayədarı

## Mehriban xanım Əliyeva bu mədəniyyət incimizi dünyaya tanıtdı

**Bütün dövrlərin parlaq simaları üçün səciyyəvi olan ən mühüm keyfiyyətlərdən biri milli-mənəvi və bəşəri dəyərlərin inkişafına layiqli töhfələr verməklə yanaşı, qlobal miqyasda insanlığın nicatına xidmət edən mühüm ictimai təşəbbüslərlə çıxış etmələri olmuşdur.**



İndi böyük qürur duyğusu ilə deyə bilərik ki, bu narahat dünyada nəcib və ali məqsədlər, bəşəri ideyalar naminə çalışan, insan amilini daim uca tutan xoşməramlı şəxsiyyətlər arasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın adı xüsusi çəkilir.

Azərbaycanın birinci xanımının indiyədək çoxşaxəli fəaliyyətinin nəinki ölkəmizdə, onun hüdudlarından kənarda da rəğbətlə qarşılanmasının səbəbləri kifayət qədərdir: o, əzmkar fəaliyyəti ilə milli-mənəvi dəyərlərin, qeyri-maddi irsin dünya miqyasında təbliği ilə yanaşı, həm də sivil dünyada sülhü, sabitliyi, sivilizasiyalararası dialoqu, bir sözlə, insanlığın tərəqqisinə yönələn ali ideyaların reallaşdırılmasını, bu sahələrdə səylərin birləşdirilməsini hədəfə almışdır.

Mehriban xanım Əliyeva görkəmli siyasi xadimdir, yüksək təşkilatçı, bacarıqlı idarəçidir! Ulu öndər Heydər Əliyevin dövlətçilik kursunun fəal təmsilçilərindəndir! Ən əsası isə böyük vətənpərvərdir!

Bu amallara tapınan UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva əzmkar fəaliyyəti ilə məhz belə bir ucalığa yüksəlmiş, cəmiyyətdə böyük nüfuz, ən əsası isə insanların sonsuz məhəbbətini, etimadını qazanmışdır. Azərbaycanın birinci xanımının təşəbbüsü ilə ilk günlərdən həyata keçirilən çoxşaxəli layihələri birləşdirən ümumi ortaq xətt milli genofondun qorunması, saf duyğuların ictimai şüurda möhkəmlənməsi olmuşdur.

Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizin regionlarına tez-tez səfərlər edir. Hər belə səfər zamanı açılışında şəxsən iştirak etdiyi yeni infrastruktur obyektləri, müəssisələr, mədəniyyət ocaqları ilə Azərbaycanın inkişaf hüdudları daha da genişlənir. Bu baxımdan dövlət rəhbərinin Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ilə birlikdə Qarabağ bölgəsinə səfəri də istisna olmadı. Səfərin ən əlamətdar məqamlarından biri isə Ağdam Muğam Mərkəzinin açılışı, Prezident İlham Əliyevin və Mehriban xanım Əliyevanın bu mərkəzdə ölkəmizin bir qrup muğam ustadı ilə səmimi görüşü, söhbəti idi.

Ağdam Muğam Mərkəzi indiyə qədər Bakı, Ağcabədi və Füzuli şəhərlərində ucaldılmış belə mərkəzlərin dördüncüsüdür. Digər muğam mərkəzləri kimi, Ağdam Muğam Mərkəzi də Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilib.

Muğam tarixən bu sənətin beşiyi sayılan Qarabağın simvollarındandır. Ona görə də Ağdamda belə bir mədəniyyət məbədinin yüksəlməsi böyük rəmzi məna daşıyır. Ölkə rəhbəri muğam ustadları ilə görüşü zamanı fondun bu təşəbbüsünü yüksək qiymətləndirdi: “Bu gözəl, möhtəşəm bina bir daha onu göstərir ki, Azərbaycan xalqı və dövləti öz milli sənəti olan muğama çox böyük sevgi ilə yanaşır. Bina həm xarici görünüşü və memarlıq baxımından çox gözəldir, həm də daxili tərtibat da göz oxşayır. Dərs otaqları, eyni zamanda, gözəl konsert salonu ən yüksək standartlara cavab verir. Bu Muğam Mərkəzində həm məşhur ifaçılarımız öz məharətlərini göstərəcəklər, həm də gənclər muğam sənətinə cəlb ediləcəklər. Bir sözlə, bu mərkəzin çox böyük əhəmiyyəti, çox böyük mənası var”.

### Tükənməz xəzinə

Muğam Azərbaycan xalqının minillərlə formalaşan tükənməz xəzinəsidir. İnsan qəlbinin, ruhunun dərinliklərində çağlayan nur çeşməsidir. Bu, zəngin fəlsəfi və ədəbi zəmində təşəkkül tapmış bir musiqidir. Xalqın mədəni-mənəvi irsinin ilkin kökləri yaradıcı başlanğıc kimi həmişə ən böyük sirr olaraq qalır. Heç bir nəzəriyyə bu yaradıcılığın ən incə çalarlarını belə olduğu kimi çatdırmaq iqtidarında deyil. Yalnız muğam ifaçıları həmin sirri fəhmlə duyaraq öz ifaları ilə bu sənətə həyat verməyə qadirdirlər. Düşünürük ki, təkcə elə muğamın özü, onun ecazkar sirləri Azərbaycan xalqının nə qədər dərin fikir dünyasına malik olduğunu göstərir.

Mehriban xanım Əliyeva illər əvvəl “Azərbaycan İrs” jurnalında dərc olunmuş “Qarabağ muğamı” adlı məqaləsində bu mədəniyyət xəzinəsinin sirlərini, mətləblərini belə təsvir etmişdi: “Çoxəsrlik tarixə malik olan Azərbaycan muğamı, mütəxəssislərin rəyinə görə, Şərq intibahı çağında özünün çiçəklənmə dövrünü yaşamışdır. Sonrakı dövrlər bu sənətin mahiyyət və məzmununu əsla dəyişdirə bilməmişdir.

Ardı 3-cü səh.

“Made in Azerbaijan”

# Azərbaycan Çində ikinci şərab evini açdı





**Şanxayda “Azərbaycan Şərab Evi” açılıb. Bu, Azərbaycanın Çindəki sayca ikinci Şərab Evidir.**

AZƏRTAC xəbər verir ki, Çinin ilk və ən böyük ticarət zonası olan Şanxay Vayqaoçao Beynəlxalq Ticarət Əməliyyat Mərkəzində (ITOC) yerləşən “Azərbaycan Şərab Evi”ndə məhsullarımızın sərgisi, topdan və pərakəndə satışı, habelə dequstasiyası həyata keçiriləcək. “Azərbaycan Şərab Evi”ndə yerli şirkətlərimizin istehsal etdiyi 120 çeşiddən çox üzüm və meyvə şərabları, spirtli içkilər, meyvə distillatları və s. nümayiş olunur.

“Azərbaycan Şərab Evi”nin açılışına həsr olunmuş tədbirdə çıxış edən iqtisadiyyat naziri Şahin Mustafayev qarşılıqlı hörmət və dostluq prinsiplərinə əsaslanan Azərbaycan-Çin əlaqələrinin uğurlu inkişafının məmnunluq doğurduğunu, ölkələrimiz arasında münasibətlərin möhkəmləndirilməsində hər iki dövlət başçısının siyasi iradəsinin, yüksəksəviyyəli səfərlərin, əldə edilmiş razılaşmaların mühüm əhəmiyyətini vurğulayıb.

Ardı 3-cü səh.

# Heydər Əliyev Fondu Azərbaycanı Almaniyada layiqincə təbliğ edir

**Berlində Heydər Əliyev Fondunun və Azərbaycanın Almaniyadakı səfirliyinin təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyinə həsr olunan sərginin açılışı və rəsmi qəbul keçirilib.**







Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, Azərbaycanın Almaniyadakı səfiri Ramin Həsənov, Bundestaqın deputatları, Almaniya hökumətinin təmsilçiləri, Almaniyada akkreditə olunmuş diplomatik nümayəndəliklərin rəhbərləri, ictimai-siyasi dairələrin nümayəndələrinin iştirak etdikləri tədbirdə qonaqlar əvvəlcə Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə dair sərgi ilə tanış olublar.

Daha sonra keçirilən rəsmi qəbulda çıxış edən Azərbaycanın Almaniyadakı səfiri Ramin Həsənov Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun həm Azərbaycanda, həm də ölkəmizin hüdudlarından kənarda müxtəlif sahələri əhatə edən fəaliyyəti barədə məlumat verib. O, Heydər Əliyev Fondunun o cümlədən Almaniya ilə mədəniyyət mübadiləsinə önəm verdiyini, bu ölkədə çoxsaylı elm və mədəniyyət tədbirləri həyata keçirdiyini vurğulayıb.

Bugünkü respublikamızın Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğunu qeyd edən səfir ölkəmizin tərəfdar çıxdığı demokratiya, dünyəvilik, dini və mədəni müxtəliflik kimi dəyərlərin bizə Xalq Cümhuriyyətindən miras qaldığını bildirib. Səfir vurğulayıb ki, vaxtilə Azərbaycan Xalq Cümhuriyyəti qurucularının Azərbaycan xalqının rifahı naminə həyata keçirmək istədiyi, amma sovet işğalının imkan vermədiyi ideyalar bu gün müstəqil respublikamız tərəfindən ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu daxili və xarici siyasət kursu sayəsində uğurla reallığa çevrilir. Bu siyasətin nəticəsidir ki, ölkəmiz regionda aparıcı iqtisadi qüvvəyə çevrilib və Dünya Bankının “Doing Business 2019” hesabatında 25-ci yerdə qərarlaşıb.

Azərbaycan-Almaniya münasibətlərindən danışan səfir Almaniyanın federal kansleri Angela Merkelin Azərbaycana səfərinin bütün sahələrdə dinamik inkişaf edən əlaqələrin daha da yaxınlaşması üçün yeni imkanlar açdığını diqqətə çatdırıb.

Ardı 7-ci səh.

# Kambocanın Kralı əlahəzrət Norodom Sihamoniyə

Əlahəzrət!

Kamboca Krallığının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Kamboca xalqına sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLIYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 noyabr 2018-ci il*

# Ş.V.Eyubova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Bakı Metropoliteninin tikintisində xidmətlərinə görə Şaiq Veyis oğlu Eyubova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 noyabr 2018-ci il*

# M.Ə.Nəbiyevə "Əməkdar mühəndis" fəxri adının verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Bakı Metropoliteninin tikintisində xidmətlərinə görə Məzahir Əbilşah oğlu Nəbiyevə "Əməkdar mühəndis" fəxri adı verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 noyabr 2018-ci il*

# Bakı Metropoliteninin bir qrup işçisinin "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Bakı Metropoliteninin tikintisində və istismarında səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Abdusəmədov Qurban Əli oğlu
Əmrahov Rasim Zeyqəm oğlu
Mehtiyev Rafail Mehti oğlu
Mirzəliyev Əbülfəz Bağman oğlu
Tahirov Xaləddin Şərif oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 noyabr 2018-ci il*

# Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Mənzil Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 612; 2011, № 12, maddə 1108; 2012, № 6, maddə 501; 2017, № 5, maddə 732, № 7, maddə 1298) aşağıdakı dəyişikliklər edilsin:

1. 21.1-ci və 24.1-ci maddələrə "orqanının" sözündən sonra "və ya müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurumun" sözləri əlavə edilsin.
2. 24.2.6-cı maddəyə və 28.3-cü maddənin birinci cümləsinə "müvafiq icra hakimiyyəti orqanının" sözlərindən sonra "müəyyən etdiyi orqanın (qurumun)" sözləri əlavə edilsin.
3. 28.4-5-ci və 143-cü maddələrdə "müvafiq icra hakimiyyəti orqanı" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 oktyabr 2018-ci il*

# "Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1253-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Mənzil Məcəlləsinin icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 24 may tarixli 272 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1253-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. "Azərbaycan Respublikası Mənzil Məcəlləsinin icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 24 may tarixli 272 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 5, maddə 401; 2012, № 11, maddə 1086; 2013, № 5, maddə 499; 2015, № 9, maddə 998) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.1. Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 21.1-ci maddəsində ikinci halda, 24.1 ci maddəsində ikinci halda, 24.2.6-cı maddəsində, 28.3-cü maddəsinin birinci cümləsində, 28.4-5-ci maddəsində ikinci halda və 143-cü maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;";

3.2. aşağıdakı məzmunda 1.1-1-ci bənd əlavə edilsin:

"1.1-1. həmin məcəllənin 28.5-ci və 140.3-cü maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;";

3.3. 1.2-ci və 1.4-cü bəndlərə "maddəsində" sözündən sonra "birinci halda" sözləri əlavə edilsin;

3.4. 1.5-ci, 1.6-cı və 1.10-cu bəndlərdə "müvafiq icra hakimiyyəti orqanı"nın" sözləri "orqanın (qurumun)" sözləri ilə əvəz edilsin;

3.5. 1.10-cu bənddən "(ikinci halda)" və "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 noyabr 2018-ci il*

# Azərbaycan Respublikasında səhiyyə sahəsinin inkişafına dövlət dəstəyinin gücləndirilməsi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Səhiyyə sektorunun inkişafı ilə bağlı islahatlar dövlətin həyata keçirdiyi sosial siyasətin başlıca istiqamətlərindən birini təşkil edir. Səhiyyə ilə bağlı mühüm dövlət proqramlarının həyata keçirilməsi, əhalinin sağlamlığının daha etibarlı şəkildə qorunması, onların ən yüksək səviyyədə tibbi xidmətlərlə təmin olunması sözügedən istiqamətdə gerçəkləşən siyasətin əsas prioritetlərindəndir.

2004-2017-ci illər ərzində respublika ərazisində 600-dən çox səhiyyə müəssisəsi tikilmiş, əsaslı təmir olunmuş və müasir tibbi avadanlıqla təchiz edilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Respublika Talassemiya Mərkəzinin yeni nəsil sekvenləşdirmə sistemi ilə təmin olunması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.84-cü bəndində göstərilmiş məbləğin 1,8 milyon (bir milyon səkkiz yüz min) manatı Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 noyabr 2018-ci il*

# "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 2, maddə 78; 2015, № 11, maddə 1282; 2016, № 11, maddə 1751; 2017, № 11, maddə 1967; 2018, № 6, maddə 1175) aşağıdakı dəyişikliklər edilsin:

1. 21.2-ci maddədə "müvafiq icra hakimiyyəti orqanı" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin.
2. 27.1-ci maddədə ikinci halda, 33.3-cü maddənin ikinci cümləsində və 40.3-cü maddədə "müvafiq icra hakimiyyəti orqanı" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin.
3. 39.2-ci və 39.6-cı maddələrdə "müvafiq icra hakimiyyəti orqanı ilə" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla)" sözləri ilə əvəz edilsin.
4. 39.3-cü maddəyə "müvafiq icra hakimiyyəti orqanının" sözlərindən sonra "müəyyən etdiyi orqanın (qurumun)" sözləri əlavə edilsin.
5. 40.4-cü maddənin birinci cümləsində "müvafiq icra hakimiyyəti orqanında" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda)" sözləri ilə, ikinci cümləsində "müvafiq icra hakimiyyəti orqanına" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma)" sözləri ilə əvəz edilsin.
6. 40.5-ci maddənin birinci cümləsində "müvafiq icra hakimiyyəti orqanı ilə" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla)" sözləri ilə, ikinci cümləsində "müvafiq icra hakimiyyəti orqanı" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin.
7. 45.1-ci maddədə "Müvafiq icra hakimiyyəti orqanı" sözləri "Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 oktyabr 2018-ci il*

# Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurası üzvlərinin təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 15 may tarixli 167 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Nizamnaməsi"nin 5.3-cü bəndinə uyğun olaraq **qərara alıram:**

1. Aşağıdakı şəxslər Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının üzvləri təyin edilsinlər:

Abdullayev Kamal Mehdi oğlu
Əbdüləziz bin Osman əl-Tüveycri
Əliyeva Leyla İlham qızı
Əlizadə Akif Ağamehdi oğlu
Əlizadə Firəngiz Əliağa qızı
Koiçiro Matsuuro
Nəcəfov Etibar Əli oğlu
Salahov Tahir Teymur oğlu
Şarovski Aleksandr Yakovleviç
Zabelin Mixail Yuryeviç.

2. "Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurası üzvlərinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 19 noyabr tarixli 877 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, №11, maddə 1479) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 noyabr 2018-ci il*

# "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1256-VQD nömrəli Qanununun tətbiqi və "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 506-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 15 fevral tarixli 828 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1256-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının 2012-ci il 21 dekabr tarixli 506-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 15 fevral tarixli 828 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 2, maddə 122; 2016, № 5, maddə 865, № 11, maddə 1811; 2017, № 6, maddə 1085, № 11, maddə 2005) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.1. Mədəniyyət haqqında" Azərbaycan Respublikası Qanununun 5.2-ci maddəsinin birinci cümləsində (mədəniyyət sahəsində dövlət siyasətinin prioritet istiqamətlərinin müəyyən edilməsi və onun əsasında dövlət proqramlarının və strategiyaların qəbul edilməsi və icrasına nəzarət üzrə), 21.2-ci maddəsində, 25.1-ci maddəsində hər iki halda, 27.1-ci maddəsində ikinci halda, 33.3-cü maddəsinin ikinci cümləsində, 39.2 ci, 39.3-cü, 39.6-cı və 40.3-cü maddələrində, 40.4-cü maddəsinin birinci cümləsində hər iki halda və ikinci cümləsində ikinci və üçüncü hallarda, 40.5-ci maddəsinin birinci və ikinci cümlələrində, 45.1-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;";

3.2. 2.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

"2.3. həmin qanunun 5.2-ci maddəsinin birinci cümləsində (mədəniyyət sahəsində məqsədyönlü layihələrin, tədbirlər planlarının qəbul edilməsi və onların icrasına nəzarət üzrə), 25.3-cü, 41.2-ci və 41.3-cü maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi həyata keçirir;";

3.3. aşağıdakı məzmunda 2.3-1-ci və 2.3-2-ci bəndlər əlavə edilsin:

"2.3-1. həmin qanunun 21.2-ci, 27.1-ci, 39.2 ci, 39.3 cü, 39.6 cı, 40.3-cü maddələrində, 40.4-cü maddəsinin birinci və ikinci cümlələrində, 40.5-ci maddəsinin birinci və ikinci cümlələrində (Azərbaycan Milli Elmlər Akademiyasının rəyi nəzərə alınmaqla), 45.1-ci maddəsində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, tabeliyindəki dövlət qoruqlarının ərazisində Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi, "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix Etnoqrafiya qoruqları ərazilərində isə "İçərişəhər" Dövlət Tarix Memarlıq Qoruğu İdarəsi həyata keçirir;

2.3-2. həmin qanunun 33.3-cü maddəsinin ikinci cümləsində nəzərdə tutulmuş orqanın (qurumun) səlahiyyətlərini qoruqların sərhədlərinin və mühafizə zonalarının müəyyən edilməsi hissəsində Azərbaycan Respublikasının Nazirlər Kabineti, mədəni irs abidələrinin mühafizə zonalarının müəyyən edilməsi hissəsində isə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, tabeliyindəki dövlət qoruqlarının ərazisində Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi, "İçərişəhər" Dövlət Tarix Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqları ərazisində "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi həyata keçirirlər;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 noyabr 2018-ci il*

# "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 7-ci bəndini rəhbər tutaraq, "Reklam haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 17 noyabr tarixli 867-VQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

"Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 12, maddə 690; 2001, № 12, maddə 736; 2002, № 5, maddə 242; 2004, № 4, maddə 202; 2005, № 2, maddə 62; 2007, № 11, maddə 1082; 2010, № 3, maddə 173; 2011, № 12, maddə 1075; 2015, № 2, maddə 86; 2016, № 11, maddə 1779; 2017, № 5, maddə 708, № 7, maddə 1270; 2018, № 1, maddə 21) 7-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1. 1.5-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.5. bələdiyyə mülkiyyətində olan daşınmaz əmlak üzərində reklam daşıyıcısının yerləşdirilməsi ilə bağlı ödəniş;".

2. 1.8-ci bənddə "və icarəyə" sözləri ", icarəyə və istifadəyə" sözləri ilə əvəz edilsin.
3. 2-ci hissənin ikinci cümləsində "torpaqlarda, binalarda və digər obyektlərdə açıq məkan reklamına görə ödənilən haqqın" sözləri "daşınmaz əmlak üzərində reklam daşıyıcısının yerləşdirilməsi ilə bağlı ödənişin" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 oktyabr 2018-ci il*

# "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1259-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1259-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 noyabr 2018-ci il*

# Heç zaman enməyəcək müstəqillik rəmzi

## Kölgənin düşdüyü hər yer vətəndir



*Əvvəli 1-ci səh.*

Buna görə də 1918-ci il noyabrın 9-da Fətəli xan Xoyskinin məruzəsi əsasında Azərbaycanın yeni üçrəngli - mavi, qırmızı, yaşıl zolaqlardan ibarət və üzərində ağ rəngli aypara və səkkizguşəli ulduz təsviri olan milli bayrağının təsdiq edilməsi haqqında qərar qəbul edilir.

Yeni bayraq ilk dəfə həmin gün Bakıda Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının yerləşdiyi binada, kütləvi şəkildə isə noyabrın 17-də Bakıda dəniz vağzalında ingilis generalı Tomsonun qarşılanma mərasimində qaldırılır. Himn əvəzinə isə (o zaman hələ himnimiz olmadığından) "Azərbaycan" qəzetinin baş redaktoru Üzeyir Hacıbəylinin təklifi ilə onun "Leyli və Məcnun" əsərində Nofəl səhnəyə gələrkən səsləndirilən coşdurucu musiqi ("Heyratı" üstündə) çalınması qəbul edildi.

### Türkləşmək, müasirləşmək, islamlaşmaq

Bayraq hər bir millətin kimliyinin, dilinin, mədəniyyətinin, dini-mənəvi əxlaqının, bir sözlə, onların ümumiliyi olan milli ideologiyasının ifadəsidir. Bu mənada üçrəngli bayrağımızın da milli varlıq fəlsəfəsi özünəməxsusdur.

Milli bayrağımızdakı göy rəng - türkçülüyü, qırmızı rəng - müasirliyi, yaşıl rəng - islam ideologiyasını ifadə edir.

Qeyd edək ki, bütün türk milləti üçün böyük bir ideala və məqsədə çevrilən bu üçlük şüarının banisi türk dünyasının böyük mütəfəkkiri olan həmvətənimiz Əli bəy Hüseynzadədir. 1907-ci ilin iyul ayının 10-da Bakıda özünün nəşr etdiyi "Füyuzat" (xeyir, fayda mənasındadır) jurnalındakı bir məqaləsində "Türk hissiyyatlı, islam etiqadlı, firəng qafalı" kimi ilk dəfə təqdim etdiyi bu fikri sonradan böyük mütəfəkkir Ziya Göyalp belə ifadə etmişdi: "Türk qanlı, islam imanlı, Avropa mədəniyyətli".

Beləliklə aydın olur ki, cümhuriyyətin tək boyalı bayrağının üçrəngli bayraqla əvəz olunması müəyyən mənada siyasi amillərlə bağlı olsa da, əslində onun yaranmasında milli-türk və müstəqil Azərbaycan ideyası daha mühüm rol oynamışdır. İkinci bayraqda al-qırmızı boya və ayparalı səkkizguşəli ulduzla yanaşı, türklüyü və islamı ifadə edən göy və yaşıl rənglərin öz ifadəsini tapması ilə milli bayraq tam bir mənəvi-ideoloji dəyər kəsb etmişdi.

### Ay-ulduzun mənası nədir?

Maraqlıdır ki, üçrəngli bayrağımızın rənglərinin hansı mənanı və ideyanı ifadə etməsi ilə bağlı dəqiq məlumatlar olsa da, onun üzərindəki aypara və səkkizguşəli ulduzun mənaları barədə müxtəlif versiyalar səsləndirilir.

Məsələn, bəzi fikirlərə əsasən, aypara bir vaxtlar Bizans imperiyasının paytaxtı Konstantinopolun gerbi olub. Türklər 1453-cü ildə həmin şəhəri aldıqdan sonra bu gerb Osmanlı İmperiyası tərəfindən islam dininin bir rəmzi kimi qəbul edilib, həmin dində olan başqa xalqlara da keçib və bayraqların üzərindəki aypara türk xalqlarının simvoluna çevrilib. Bununla yanaşı ay və ulduzun bir yerdə olması qədim türklər tərəfindən xoşbəxtlik simvolu kimi dəyərləndirildiyi, qəməri təqvimə işarə olduğu da deyilir.

Səkkizguşəli ulduzun mənasına gəlincə bu, "Azərbaycan" sözünün əski əlifbada yazılışı ilə bağlıdır. Belə ki, əski əlifbada "Azərbaycan" sözü səkkiz hərflə yazılır. O cümlədən tarixdə səkkizguşəli ulduzun mənası belə açıqlanır: türkçülük, islamçılıq, çağdaşlıq, dövlətçilik, demokratiklik, bərabərlik, azərbaycançılıq və mədəniyyətlilikdir. Azərbaycan bayrağındakı ulduz memarlıqda da geniş istifadə olunub. Səkkizguşəli ulduzun əbədiyyət, sonsuzluq, möhtəşəmlik, davamlılıq və davamiyyət rəmzi olduğu fikirləri də söylənilir...

### Böyük qayıdış

1920-ci il aprelin 27-də bolşevik işğalından sonra AXC-nin bayrağı SSR-nin bayrağı ilə əvəzlənir, üçrəngli bayrağımız parlament binası üzərindən endirilir, amma onu qəlblərdən silmək mümkün olmur...

1952-ci ilin mayın 28-də mühacirətdə olan azərbaycanlıların Almaniyada keçirdiyi Respublika günündə M.Ə.Rəsulzadə üçrəngli bayrağı başı üzərinə qaldırıb onu Azərbaycana aparmaq üçün kimə etibar edə biləcəyini soruşur. Zaldakılardan Gülmirzə Bağırov bu əmanəti götürür və 70-ci illərdə həyat yoldaşının bədəninə sarıyıb vətənə gətirir və həmin bayrağı 1990-cı ilin yanvarında Maştağadakı evinin damından asır...

1956-cı ildə üçrəngli bayraq yaşadığı quruluşa nifrətini açıq şəkildə bildirən ağdamlı rejissor Cahid Nihaloğlu tərəfindən Qız qalası üzərində dalğalandırılır və o, bu vətənpərvər cəsarətinə görə 4 il həbslə "mükafatlandırılır".

### Tarixi ədalətin bərpası...

SSR-i imperiyasına qarşı meydanlarda qaldırılan bayrağa ilk hüquqi status isə 1990-cı ildə verildi. Həmin ilin noyabrın 17-də ümummilli lider Heydər Əliyevin rəhbərlik etdiyi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə üçrəngli bayraq Muxtar Respublikanın dövlət bayrağı kimi qəbul edildi.

Eyni zamanda, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırdı. 1991-ci il fevralın 5-də Azərbaycan Ali Soveti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatətinə baxaraq "Azərbaycan Respublikasının Dövlət Bayrağı haqqında" qanunu qəbul etdi.

1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə Azərbaycan Respublikası Xalq Cümhuriyyətinin varisi kimi onun dövlət rəmzlərini, o cümlədən dövlət bayrağını bərpa edir. 2004-cü il iyunun 8-də "Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə bu sahədə qanunvericilik bazası təkmilləşdirilir.

Dövlət bayrağı respublikamızın dövlət qurumlarının və diplomatik nümayəndəliklərinin binaları üzərində ucalır, mühüm beynəlxalq tədbirlər, mötəbər mərasimlər və məclislərlə yanaşı, irimiqyaslı ictimai-siyasi toplantılarda, mədəni tədbirlərdə və idman yarışlarında qaldırılaraq milli birliyi təcəssüm etdirir.

### Ən uca bayraq

2009-cu il noyabrın 17-də Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında" Sərəncam imzalayıb. Həmin il dekabrın 4-də isə Milli Məclis noyabrın 9-nu Dövlət Bayrağı Günü kimi rəsmiləşdirib.

2010-cu il sentyabrın 1-də Prezidentin iştirakı ilə Dövlət Bayrağı Meydanının - Bakı şəhərinin Bayıl sahəsində yerləşən memorial abidə-istirahət parkının təntənəli açılışı olub. Meydanda Dövlət Bayrağı Muzeyi də yaradılıb.

Dünyada nadir muzeylərdən biri olan Dövlət Bayrağı Muzeyində Ginnes dünya rekordları təşkilatının 2010-cu il may ayının 29-da Azərbaycanın Dövlət bayrağı dirəyinin dünyada ən hündür bayraq dirəyi olduğunu təsdiq edən sertifikat da nümayiş olunur.

### Dalğalan ki, düşmən diz çöksün önündə...

Ən hündür zirvələrdə dalğalan, bayrağım!

Dalğalan ki, böyük yaradılışının şahidi olanların, uğrunda canlarından keçənlərinin ruhu şad olsun. Dalğalan ki, düşmən əzəmətin qarşısında əzilsin, diz çöksün önündə...

Dalğalan Şuşada, Ağdamda, Kəlbəcərdə, Zəngilanda...

Murovun, Kirsin, Əsgülümün, Qızılboğazın zirvələrində dalğalan...

***Yasəmən MUSAYEVA,***
***"Azərbayan"***

# Azərbaycan Çində ikinci şərab evini açdı

*Əvvəli 1-ci səh.*

Qeyd olunub ki, Azərbaycan Çinlə iqtisadi əlaqələrin genişləndirilməsinə, qarşılıqlı faydalı birgə layihələrin həyata keçirilməsinə böyük önəm verir. Ticarət sahəsində əməkdaşlığın Azərbaycan-Çin iqtisadi əlaqələrinin mühüm istiqamətlərindən olduğunu diqqətə çatdıran Şahin Mustafayev 2017-ci ildə Azərbaycanın Çin ilə ticarət dövriyyəsinin 20 faiz artdığını və ölkəmizin xarici ticarət dövriyyəsində Çinin 4-cü yerdə olduğunu bildirib. İki ölkə arasında ticarət əməkdaşlığının daha da genişləndirilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilir, Azərbaycanın Çində Ticarət Nümayəndəliyi fəaliyyət göstərir, Azərbaycan məhsullarının Çində tanıdılması, "Made in Azerbaijan" brendinin təşviqi məqsədilə Honq-Konq, Quancou, Şanxay və Urumçi şəhərlərinə ixrac missiyaları təşkil edilib, Lucouda Azərbaycanın Ticarət, Urumçidə Şərab evləri açılıb, Azərbaycan istehsalı olan məhsullar Çində keçirilən müxtəlif beynəlxalq sərgilərdə nümayiş olunur. Nazir Şahin Mustafayev Azərbaycan şərablarının Çinə ixracının artırılacağını, yerli şərablarımızın xüsusi dad və yüksək keyfiyyəti ilə seçildiyini vurğulayıb, bu ilin iyununda Şanxayda keçirilmiş "International Wine Challenge" müsabiqəsində Azərbaycan şərablarının yüksək mükafata layiq görüldüyünü qeyd edib. Bildirilib ki, Azərbaycanın xarici ölkədə ilk şərab evi də məhz bu ilin sentyabrında Çində - Urumçidə açılıb. Çinin digər bölgələrində də Azərbaycan şərab və ticarət evlərinin yaradılması nəzərdə tutulur.



Şanxay "Vayqaoçao Group Co. Ltd" şirkətinin baş direktorunun müavini Can Hao çıxış edərək vurğulayıb ki, Azərbaycan-Çin münasibətləri hazırda müxtəlif istiqamətlər üzrə uğurla inkişaf edir. Şanxayda açılan "Azərbaycan Şərab Evi" də iqtisadi-ticarət əlaqələrinin inkişafına töhfəsini verməklə yanaşı, Azərbaycan məhsullarının Çin alıcılarına tanıdılması baxımından əhəmiyyətli rol oynayacaq.

Sonra tədbir iştirakçıları "Azərbaycan Şərab Evi" ilə tanış olublar. Şərab evində məhsulları nümayiş olunan şirkətlərin təmsilçiləri şərab və spirtli içkilər barədə məlumat veriblər.

Azərbaycan nümayəndə heyəti "Direct Imported Goods" ("DIG") marketlər şəbəkəsində də olub. Qeyd edək ki, artıq Şanxay Vayqaoçao Beynəlxalq Ticarət Əməliyyat Mərkəzinin "DIG" marketlər şəbəkəsində Azərbaycan şərablarının və digər spirtli içkilərin satışına başlanıb.

Həmin gün Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev Şanxay Vayqaoçao Beynəlxalq Ticarət Əməliyyat Mərkəzi Administrasiyasının rəis müavini Li Cinsonq ilə görüşüb. Görüşdə Vayqaoçao Azad Ticarət Zonası, burada yaradılmış "vahid pəncərə" sistemi, tətbiq olunan qanunvericilik, gömrük, maliyyə və logistika xidmətləri, zonanın rezidentləri barədə Azərbaycan nümayəndə heyətinə məlumat verilib, bu sahədə Çin təcrübəsi barədə fikir mübadiləsi aparılıb. Nazir Şahin Mustafayev Azərbaycan nümayəndə heyətinin Çinə səfəri, Birinci Çin Beynəlxalq İdxal Sərgisində Azərbaycan pavilyonlarında məhsullarımızın nümayiş olunması, eləcə də Bakı Beynəlxalq Dəniz Ticarət Limanı barədə məlumat verib, limanın ərazisi də daxil olmaqla azad iqtisadi zonanın yaradılmasının nəzərdə tutulduğunu vurğulayıb.

# Muğamın böyük himayədarı

## Mehriban xanım Əliyeva bu mədəniyyət incimizi dünyaya tanıtdı

*Əvvəli 1-ci səh.*

Bu gün də muğam bir tərəfdən keçmişdən bu günə yaşayan mənəvi sərvət, digər tərəfdən isə son dərəcə çağdaş sənət aləmi kimi bütün varlığı ilə yaşamaqdadır. Burada sənətin ənənə ilə qəti olaraq müəyyən edilmiş normaları və yaradıcılıq prosesindəki improvizasiya imkanları heyrətamiz bir vəhdət, ahəngdarlıq təşkil edir".

Əlbəttə, muğam təkcə Azərbaycanın deyil, ümumən bəşəriyyətin mənəvi xəzinəsidir. Amma bu da bir reallıqdır ki, istənilən dəyəri təbliğ etmədən, mahiyyətini, əhəmiyyətini insanlara çatdırmadan, ictimai düşüncədə onu həmişə canlı saxlamadan bu dəyərin yaşayacağını, mövcudluğunu qoruyacağını düşünmək sadəlövhlük olardı. Muğamda dilə gələn, danışan xalqın əməlləri, uca hissləri və arzularıdır. Təbiilik, yüksək bədii zövq onun gözəl keyfiyyətləridir.

Lakin insan təbiətən elə bir varlıqdır ki, o, hansısa kənar təsirlərlə bəzən özünün ən qiymətli incilərinə də etinasız yanaşır, onların qədrini bilmir, ruha qida verənlərə yox, ruhu aşındıranlara üz tutur. Düşüncəsini çox da çətinə salmadan onun üçün ən asan görünən, qeyri-sənət nümunələri - bayağı musiqilərlə zövqünü və ruhunu aldatmış olur. Ona görə də əsl sənətə himayəçilik təkcə onun inkişafına dəstək olmaq, bu sənəti yaradanlara kömək göstərmək deyil. Bu, həm də əsl sənəti bayağılığın, yüngül duyğuların ayağına verməməkdir. Cəmiyyətin zövqünü formalaşdırmaq, onu əsl sənətin ardınca aparmaqdır.

Vaxtilə dahi sənətkar Üzeyir bəy Hacıbəyli deyirdi ki, həyatın qanunları amansızdır. Tarixin hərəkətini saxlamaq, onun istiqamətini dəyişmək, dövrünü keçirmiş və mürtəce fikirlərlə yaşayan adamların iradəsindən asılı deyildir. Tarix səhnəsində qalmaq istəyən, öz milliyyətini, dilini, mədəniyyətini və ənənələrini saxlamaq istəyən, öz torpağının sahibi olmaq istəyən bir xalq birinci növbədə özünün milli sərvətini qorumalıdır, onun sahibi olmalıdır. Ona görə istənilən sənətin yaşaması, xalqın sərvəti kimi qorunması, kütlənin zövqünü, mədəni səviyyəsini yüksəltməsi üçün cəmiyyətin öndə gedən insanlarının şəxsi nümunəsinə hər zaman böyük ehtiyac var. Azərbaycan muğamına, sözün əsl mənasında bir dəyər kimi sahib çıxan, bu mənəvi varlığı əsl qayğı ilə öz himayəsinə alan Mehriban xanım Əliyeva əslində bununla ümummilli lider Heydər Əliyevin tarixi irsini davam etdirir. Muğamın Azərbaycanın mənəvi aləmini bütün dünyaya sərgiləyəcək ecazkar bir gücə, əzəmətə malik olduğunu hələ ötən əsrin 70-ci illərində Heydər Əliyev özünəməxsus fəhmi ilə duyurdu. Həmin illərdə Sovet İttifaqında UNESCO-nun himayəsi ilə keçirilən ənənəvi beynəlxalq musiqi festivallarında Qərb dünyası Azərbaycan muğamının heyranlığını yaşamışdı. Qədim sənətimiz hələ o zamandan addım-addım dünya mədəniyyəti məkanına daşınmış, bu mühitin mədəni dəyərləri ilə qaynayıb-qarışmışdı.

Azərbaycan muğamı insanların ürəyinə yol açacaq bir qüdrətə malikdir.

### Nadir sənətə - böyük sərvətə qayğı

Müstəqilliyimizin ilk illərində Azərbaycan cəmiyyəti mədəni dəyərlərin gələcəyinə doğru uzanan istiqamətlərin də yol ayrıcında dayanmışdı. Muğam bu dövrdə öz mövcudluğunu milli ruh əsasında təmin etsə də, ölkəmizin dünyaya açılmış qapılarından içəri daxil olan xarici musiqilərin fonunda bir qədər eşidilməz olmuş, daha çox yaşlı insanların zövqündə özünü qoruya bilmişdi. Belə bir məqamda Mehriban xanımın isti, həssas münasibəti muğamı geniş musiqi auditoriyası üçün populyarlaşdırdı, yüksək zövq elementi kimi ona marağı artırdı. Əslində, muğam tarixən elitar musiqi sayılıb. Mehriban xanım Əliyeva da muğamı yenidən öz əvvəlki statusuna qaytardı. Cəmiyyətin bu tükənməz xəzinəyə münasibətini yenidən formalaşdırdı. Azərbaycan insanları necə qiymətli bir sərvətə sahib olduqlarını, sanki yenidən anlayaraq bir daha muğama üz tutdular.

Dəyərli sənətkarımız, mərhum kaman ustadı Habil Əliyev çıxışlarının birində deyirdi ki, Mehriban xanımın Azərbaycan muğamı üçün etdikləri əsl ana qayğısıdır. Bunlar bir ananın, öz övladının böyüyüb ayağa qalxması, bir tərəfə çıxması üçün qatlaşdığı fədakarlıqlardır.

Ağdam Muğam Mərkəzinin açılışında ölkəmizin muğam ustadları ilə görüşü zamanı Prezident İlham Əliyev də Mehriban xanımın muğama göstərdiyi diqqətin bütün cəmiyyətimiz tərəfindən yüksək qiymətləndirildiyini xatırlatdı. Onun Azərbaycan muğamının qorunması, inkişafı və dünyada təbliği istiqamətində yerinə yetirdiyi tarixi missiya barədə fikirləri ilə, əslində, ümumən xalqımızın qəlbindən keçənləri, minnətdarlıq duyğularını dilə gətirdi. Prezident qeyd etdi ki, son illər muğamın dirçəldiyini görürük: "Biz əsrlər boyu bu gözəl milli sənətimizi yaşatmışıq, inkişaf etdirmişik, ancaq son illərdə muğamın Azərbaycanda inkişafına çox böyük təkan verildi. Ənənəvi muğam müsabiqələri keçirilir və Azərbaycan televiziyası ilə canlı yayımlanır. Bu müsabiqələrin çox böyük əhəmiyyəti var. Həm gənc nəsil yetişir, həm gənc istedadlar gələcəyə yol tapırlar, həm də muğamın nə qədər gözəl sənət olduğunu bütün Azərbaycan vətəndaşları görür, peyk vasitəsilə dünya da görür". Dövlət rəhbəri ənənəvi muğam müsabiqələrinin çox əhəmiyyətli hadisəyə çevrildiyini vurğuladı. Həmçinin Heydər Əliyev Fondunun təşəbbüsü ilə ölkəmizdə beynəlxalq muğam festivallarının keçirildiyini, bu təşəbbüsün də çox böyük əhəmiyyətinin olduğunu qeyd etdi. Bu mühüm mədəniyyət hadisələrinin siyasi tərəflərinə, mədəniyyət diplomatiyası elementi kimi daşıdığı mənaya da diqqəti yönəltdi: "...biz bu festivalların keçirilməsi ilə bir daha göstəririk ki, muğam milli sənətimizdir və muğamın bu gün dünyada yaşaması böyük dərəcədə Azərbaycan xalqının zəhməti, istedadı hesabına mümkündür. Biz haqlı olaraq hesab edirik ki, muğamın vətəni Azərbaycandır və beynəlxalq festivalların keçirilməsi, əlbəttə, bu tezisi daha da möhkəmləndirir".

Mehriban xanım Əliyeva muğam sənətimizi dünyanın ən nüfuzlu konsert salonlarına çıxartdı, bu sənəti təkcə Azərbaycanın deyil, dünyanınkı etdi.

### Bu, tarixi hadisə idi

"Azərbaycanın zəngin mədəniyyətinin və tarixinin ən gözəl incilərindən olan muğam sənəti bizim milli sərvətimizdir. Muğam Azərbaycan xalqına xas olan ən gözəl xüsusiyyətlərin daşıyıcıdır", - deyən Mehriban xanımın "Torpağa, köklərə bağlılıq, vətənpərvərlik, milli ləyaqət hissi, qonaqpərvərlik, xeyirxahlıq, mərhəmət, emosional zənginlik - bütün bu hisslər muğam fəlsəfəsinin əsasındadır" qiyməti muğamı bir boy da ucaltdı.

Mehriban xanım Əliyevanın fədakar fəaliyyəti, milli dəyərlərimizə sonsuz sevgi və qayğısı Azərbaycan muğamını UNESCO-nun bəşəriyyətin qeyri-maddi mədəni irsi siyahısına daxil etdi.

Prezident İlham Əliyev görüşdə bu faktı tarixi hadisə kimi qiymətləndirdi və dedi: "Mehriban Əliyeva UNESCO-nun xoşməramlı səfiridir və Azərbaycan muğamını səfir kimi UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil etdirmişdir. Bu da tarixi hadisədir, hesab edirəm ki, sözün əsl mənasında, tarixi hadisədir. Çünki bu addım həm dünya miqyasında muğama göstərilən böyük diqqətin, verilən əhəmiyyətin təzahürü idi, eyni zamanda, UNESCO muğamı Azərbaycan sənəti kimi qəbul edib. Heydər Əliyev Fondunun təşəbbüsü ilə bir çox mədəni tədbirlər, təqdimatlar, sərgilər keçirilmişdir, görkəmli ifaçılarımızın diskləri, kitabları, albomları buraxılıb. Yəni, çox böyük bir iş aparılıb. Bu gün açılışına toplaşdığımız Ağdam Muğam Mərkəzinin yaradılması bu böyük işlərin tərkib hissəsidir".

### "Qarabağ xanəndələri"

Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondunun ölkəmizin görkəmli muğam sənətkarları ilə birlikdə reallaşdırdığı ilk layihə "Qarabağ xanəndələri" adlanırdı. Nəfis tərtibatla dinləyicilərin ixtiyarına verilmiş "Qarabağ xanəndələri" albomunun təqdimat mərasimində Mehriban Əliyeva demişdi: "Mən inanıram ki, bu albomla tanış olanda hiss etmisiniz ki, biz onu nə qədər məsuliyyətlə, digər tərəfdən də böyük məhəbbətlə hazırlamışıq. Heç də təsadüfi deyil ki, bizim ilk layihəmiz Qarabağ xanəndələrinə həsr olunmuşdur. Biz Qarabağ torpağının acısını, Azərbaycanın haqq səsini muğam vasitəsilə bütün dünyaya çatdırırıq".

Bu, təkcə Azərbaycan muğamının təbliğinə yönələn bir addım deyildi. Həm də muğamın gücündən mədəniyyət diplomatiyasında istifadəyə, muğamın ecazkar dili ilə Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasına doğru məqsədyönlü cəhd idi. Alboma məhz "Qarabağ xanəndələri" adının seçilməsi arxasındakı incə diplomatik məramı sezmək də bir o qədər çətin deyil. Bu albom ilk dəfə UNESCO-nun baş qərargahında həmin təşkilatın xoşməramlı səfirlərinin illik toplantısında təqdim olundu. Çox da böyük diqqət və maraqla qarşılandı. "Qarabağ xanəndələri" dünyanın diqqətini bir daha Azərbaycanın öz əzəli torpaqlarında, Dağlıq Qarabağda ermənilər tərəfindən üzləşdiyi tarixi ədalətsizliyə yönəltdi. "Qarabağ xanəndələri" layihəsi mədəniyyətin sərhədlərini aşaraq həm də siyasi bir hadisəyə çevrildi.

Mehriban xanımın özünün də söylədiyi kimi, sırf musiqi layihəsindən yetərincə əhəmiyyətli siyasi layihə yarandı: "Balaca muğam ifaçılarını, adətən, "Qarabağ bülbülləri" adlandırırlar. Bu gün... oxumaq üçün onlara Qarabağ dağları, Qarabağ təbiəti, Qarabağ torpağı lazımdır.

Azərbaycan mədəniyyətinin Üzeyir Hacıbəyli və Bülbül kimi belə böyük korifeylərinin Şuşada doğulduqlarını demək kifayətdir. Bax beləcə, sırf musiqi layihəsindən siyasi layihə yarandı".

"Azərbaycan muğamı" və "Muğam aləmi" toplularının nəşri bu layihənin uğurlu davamına çevrildi. Az sonra belə xeyirxah niyyət, nəcib təşəbbüs Azərbaycan muğamına həsr olunmuş xüsusi ensiklopediyanı da ərsəyə gətirdi. Bu cür ensiklopediyanın nəşri ölkəmizin musiqi və elmi ictimaiyyətinin böyük rəğbəti ilə qarşılandı. Azərbaycan muğamının qorunub saxlanması və daha geniş şöhrət qazanması üçün bir əlverişli zəmin də bu ensiklopediya oldu. Və bütün bu xeyirxah, nəcib işlərin təbliğati-maarifləndirici gücü ilə muğam yenidən konsert salonlarına qayıtdı, toy məclislərimizin, el şənliklərimizin bəzəyi oldu.

### Muğam məbədi

Müsahibələrinin birində muğamı xalqımızın genetik kodu kimi dəyərləndirən Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ölkəmizin bütün bölgələrində gözəl səsə, muğam istedadına malik gənclərimizin axtarışına başladı, onlara sahib çıxdı. Heydər Əliyev Fondunun prezidentinin təşəbbüsü ilə keçirilən muğam müsabiqələri və beynəlxalq festivallarla həm bu istedadları bir yerə toplayıb onlara meydan verdi, həm də Azərbaycanda muğam ənənələrinin yaşamasından ötrü nəsillər arasında körpü saldı. Bu müsabiqələrdə özünü təsdiq edə bilmiş gənclərimizin hərəsi indi püxtələşmiş peşəkar xanəndələrdir. Cəmiyyətdə sayılıb-seçilən, sevgi ilə dinlənilən və istedadı dövlətimiz tərəfindən də layiqincə qiymətləndirilən sənətkarlardır.

Mehriban xanım Əliyeva 2008-ci ildə Bakının mərkəzində ucalmasına vəsilə olduğu Beynəlxalq Muğam Mərkəzini ərsəyə gətirməklə ümumilikdə dünyanın çağdaş mədəniyyət tarixinin ən mühüm hadisələrindən birinə də müəlliflik etmiş oldu. Çünki muğam çox ölkələrdə oxunsa da, çox xalqların mədəniyyətində muğamın nişanələri öz əksini tapsa da, dünyada bu sənətin qibləgahı indi məhz Azərbaycandadır. Bu muğam məbədinin qurucusu Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevadır.

Dünyada özünə "Muğam" adını seçən, muğama xitab edən, ona üz tutan yeganə jurnal da ancaq Azərbaycanda nəşr olunur. Bu jurnalın da yaradıcısı, naşiri, ilk müəllifi Mehriban xanım Əliyevadır.

"Diqqətinizə təqdim olunan bu jurnal adi nəşrlərdən biri deyil" - Azərbaycan Mədəniyyətinin Dostları Fondunun təsisçisi olduğu nəşrə ön sözündə Mehriban xanım Əliyeva belə yazırdı, - "Ona qeyri-adilik verən, onu digərlərindən özünəməxsusluğu ilə fərqləndirən başlıca cəhət bu jurnalın bütövlükdə muğam sənətinə, muğam aləminə və muğam fenomeninə həsr olunması ilə bağlıdır. Məhz bu səbəbdən belə bir jurnalın nəşrə hazırlanması prosesi də qeyri-adi olmuşdur. Muğam ətrafında aparılan müzakirələr bu işin ayrılmaz tərkib hissəsini təşkil edir".

Azərbaycanda "Muğam" jurnalının fəaliyyət göstərməsi, bu nadir sənətin maarifçiliyi ilə məşğul olan bir nəşrin mövcudluğu ümumən dünya mədəniyyəti tarixində hadisə yaradan mənəvi gerçəklikdir.

Və bu günlərdə açılışı edilən Ağdam Muğam Mərkəzi də bu xoş hadisələrin davamıdır. Xalqımızın mənəvi dünyasını qoruyan, milli ruhumuza güc verən işığın sonsuzluğudur. "Bizim mənəvi dəyərlərimizin, Azərbaycan dəyərlərinin inkişafı, qorunması üçün ədəbiyyatımızın, musiqimizin çox böyük əhəmiyyəti var. Muğam həm ədəbiyyatdır, həm musiqidir, həm də Azərbaycan dilinin saflığını qoruyan sənətdir", - deyə qeyd edən Azərbaycan Prezidentinin də söylədiyi kimi, incəsənətimiz, ədəbiyyatımız milli ruhumuzu daha da yüksəklərə qaldırır. Bu dəyərlər, onların ucaltdığı milli ruh belə təşəbbüslərin mənəvi dolğunluğu ilə qorunur, hər zaman var olur.

Bu gün Heydər Əliyev Fondunun gördüyü işlərin analoqu yoxdur.

Əsl insan üçün ən dəyərli xəzinə çalışmaq və başqalarına yaxşılıq etmək bacarığıdır. Mehriban xanım Əliyeva bütün vaxtını, enerjisini insanların rifahına, ali bəşəri dəyərlərin təbliğinə sərf edir.

Mənəvi aləmimizi zənginləşdirən, birliyimizi təmin edən, tariximizi və mədəni irsimizi ucaldan milli sərvətlərimizi qoruyub saxlamaq hər birimizin müqəddəs borcudur. Vətən sevgisi, adət-ənənələrimiz, yurdsevərlik kimi mental keyfiyyətlərimizi özündə təcəssüm etdirən mənəvi dəyərlərimiz bütün dövrlərdə olduğu kimi bu gün də gündəlik həyatımızda əxlaqi meyar rolunu oynayır. Onları yaşatmaq, gələcək nəsillərə ötürmək xalqın keçmişini, onun varlığını qorumaq deməkdir. Bu baxımdan Mehriban xanım Əliyeva millətin gələcəyinə hesablanmış xoşməramlı missiyanı uğurla davam etdirir, milli intibah prosesinə yeni və dəyərli töhfələrini verir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Komanda-qərargah hərb oyunlarında əsas diqqət kosmik texnologiyaların tətbiqinə yönəldilməlidir

Noyabrın 8-də müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir müavinlərinin, qoşun növləri komandanlarının, nazirliyin baş idarə, idarə, xidmət rəislərinin, eləcə də birlik komandirlərinin iştirakı ilə keçirilən müşavirəyə cəbhə bölgəsində yerləşən birləşmə komandirləri və digər məsul zabitlər də videobağlantı vasitəsilə cəlb olunublar.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları rəhbər heyətə çatdıran nazir bundan irəli gələn məsələlərin qoşunlarda vaxtında və daha keyfiyyətli icrasını təmin etmək barədə konkret göstəriş verib.



Müdafiə naziri keçiriləcək komanda-qərargah hərb oyunlarında əsas diqqətin ən yeni, o cümlədən kosmik texnologiyaların tətbiqi ilə qoşunların fasiləsiz idarəedilməsi və qarşılıqlı fəaliyyətin düzgün təşkilinə yönəldilməsini tapşırıb.

Cəbhə xəttindəki vəziyyətə toxunan general-polkovnik Z.Həsənov qoşunların döyüş qabiliyyətinin, şəxsi heyətin döyüşə hazırlıq səviyyəsinin daha da yüksəldilməsinə, nizam-intizama, döyüş növbətçiliyinin təşkili və aparılmasında sayıqlığının artırılmasına, eləcə də qış mövsümünə hazırlıq işlərinin yekunlaşdırılmasına xüsusi diqqətin yetirilməsinin vacibliyini vurğulayıb.

Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü və Konstitusiya Günü münasibətilə şəxsi heyəti təbrik edən müdafiə naziri bütün hərbi hissələrdə əsgər valideynləri və yaxınları üçün "Açıq qapı" günü, eləcə də andiçmə mərasimlərinin yüksək səviyyədə təşkili ilə bağlı tapşırıqlar verib.

# Zaqatala rayonunda ədliyyə orqanları və məhkəmə üçün yeni inşa edilən müasir binanın açılışı olub

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə respublikamızda aparılan məhkəmə-hüquq islahatları çərçivəsində ədliyyə və məhkəmə fəaliyyətinin müasirləşdirilməsinə, əhalinin müraciət imkanlarının asanlaşdırılmasına xüsusi diqqət yetirilir, bu məqsədlə müasir infrastruktur yaradılır.

Dövlət büdcəsi hesabına, habelə Dünya Bankı ilə birgə həyata keçirilən layihələr çərçivəsində son illər paytaxtda və bölgələrdə müasirliyi ilə fərqlənən və ən son informasiya-kommunikasiya texnologiyaları ilə təchiz olunmuş yeni ədliyyə və məhkəmə bina və kompleksləri tikilib istifadəyə verilib, o cümlədən hazırda 7 məhkəmə üçün yeni binaların intensiv inşası aparılır. Bir çox bina və komplekslərin açılışlarında Prezident İlham Əliyev şəxsən iştirak edib, müvafiq tövsiyə və göstərişlər verib.

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan ədliyyəsinin 100 illiyinə həsr olunmuş silsilə tədbirlər çərçivəsində dövlət başçısının tapşırıqlarına uyğun olaraq, dövlət büdcəsi hesabına Zaqatala rayonunda ədliyyə orqanları və məhkəmə üçün yeni inşa edilən müasir binanın açılışı olub.





Tədbirdən əvvəl ümummilli lider Heydər Əliyevin Zaqatala rayonundakı abidəsi ziyarət olunub, xatirəsi dərin ehtiramla yad edilib.

Açılış mərasimində ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov, rayon rəsmiləri, hakimlər, hüquq-mühafizə orqanlarının rəhbərləri, ədliyyə işçiləri, ictimaiyyət və KİV nümayəndələri iştirak ediblər.

Tanışlıq zamanı bildirilib ki, ümumi sahəsi 2300 kvadratmetr olan bina üç mərtəbədən və zirzəmi qatından ibarətdir. Yeni tikilmiş digər məhkəmə binalarında olduğu kimi, burada fəaliyyət göstərən rayon məhkəməsi də ictimai və inzibati zonalara bölünməklə müasir İKT ilə təchiz olunub. Binada Azərbaycan Prezidentinin tapşırığına uyğun olaraq, "Elektron məhkəmə" informasiya sisteminin tətbiqi ilə bağlı zəruri infrastruktur yaradılıb, o cümlədən videokonfransların, elektron sənəd dövriyyəsi və məhkəmə işlərinin idarə olunmasına xidmət edən və audio-videoyazılışları aparan sistem və digər avadanlıq quraşdırılıb. Burada həmçinin konfrans və iclas zalları, arxiv və digər xidməti otaqlar mövcuddur.

Müasir texnologiyalarla təchiz olunmuş binada Zaqatala rayonu icra və probasiya, qeydiyyat şöbələrinin fəaliyyəti, o cümlədən təntənəli nikah mərasimlərinin keçirilməsi üçün hər cür şərait yaradılıb.

Mərasimdə çıxış edən ədliyyə naziri ulu öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyasına uyğun olaraq dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə respublikamızın sosial-iqtisadi tərəqqisinin təmin olunduğunu vurğulayıb, ədliyyə və məhkəmə sahəsində aparılan islahatlar və yeniliklər barədə məlumat verib. Bildirilib ki, dövlət başçısının tapşırıqlarına əsasən, ədalət mühakiməsinin səmərəliliyinin artırılması üzrə aparılan islahatlar nəticəsində məhkəmə sistemi təkmilləşdirilib, yeni məhkəmələr və məhkəmə hakimiyyətinin müstəqil özünüidarə orqanları təsis olunub, hakimlərin Avropada ən şəffaf seçim qaydaları müəyyən edilib.

Nazir ədliyyə və məhkəmə infrastrukturunun müasirləşdirilməsi üzrə görülən tədbirlərin bu sahədə fəaliyyətin yüksək səviyyədə təmin olunmasına, vətəndaşların müraciət imkanlarını artırmaqla əlçatanlığın asanlaşdırılmasına və insan hüquqlarının etibarlı təminatına xidmət edəcəyini deyib.

Dövlət Bayrağı Gününün qeyd olunduğu bu ərəfədə istifadəyə verilən binada, həmçinin qabaqcıl İKT-nin, elektron informasiya sistemlərinin tətbiqi üçün lazımi şəraitin yaradıldığı bildirilərək, onların fəaliyyətdə aşkarlığın təmin edilməsinə, süründürməçiliyin qarşısının alınmasına böyük töhfə verəcəyi vurğulanıb.

Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə, Şəki Apelyasiya Məhkəməsinin sədri Mübariz Əkbərov və digər natiqlər mərasimdə çıxış edərək respublikamızın hərtərəfli tərəqqisinə, ədalət mühakiməsinin səmərəliliyinə, ədliyyə və məhkəmə sisteminin müasirləşdirilməsinə verdiyi müstəsna əhəmiyyətə və xüsusi qayğıya görə Prezident İlham Əliyevə dərin minnətdarlıqlarını ifadə ediblər.

# Pensiya və müavinətlər, orta aylıq əməkhaqqı gələn il artırılacaq

Dünən Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclasında Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcə zərfinə daxil olan dörd qanun layihəsinin müzakirəsi keçirildi.

Parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli müzakirəyə çıxarılan sənədlər - "Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2019-cu il büdcəsi haqqında", "İşsizlikdən sığorta fondunun 2019-cu il büdcəsi haqqında", "Azərbaycan Respublikasında 2019-cu il üçün yaşayış minimumu haqqında", eləcə də "Azərbaycan Respublikası 2019-cu il üçün ehtiyac meyarının həddi haqqında" qanun layihələri barədə məlumat verdi. Sonra sənədlər tək-tək təqdim edildi.

## Gələn il orta aylıq əməkhaqqı 642 manata çatacaq

İlk qanun layihəsi ilə bağlı məlumat verən Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini İdris İsayev bildirdi ki, gələn ilin dövlət büdcə layihəsi sosialyönümlüdür. Büdcə layihəsində sosial xərclər artırılıb. Büdcə layihəsi iqtisadiyyatda baş verən dəyişikliklər, iqtisadi inkişaf meyilləri, demoqrafik, məşğulluq göstəriciləri, pensiya, sığorta sistemində baş verən dəyişikliklər və gələcək üçün nəzərdə tutulan tədbirlərin qiymətləndirilməsi əsasında təşkil olunub.

Bəlli oldu ki, Dövlət Sosial Müdafiə Fondunun 2019-cu il üçün büdcə gəlirləri 3 milyard 928 milyon manat məbləğində proqnozlaşdırılır. Bu vəsaitin 97 faizi əhaliyə yönəldiləcək. 2019-cu ilin xərcləri cari illin gözlənilən göstəricisi ilə müqayisədə 190 milyon manat çoxdur. 190 milyon manatın tərkibində əsasən əmək pensiyalarının maliyyələşməsi üzrə xərclərə 176,7 milyon manat, sosial sığorta haqlarına verilən müavinətlərə 3,8 milyon manat, digər xərclərə isə 9,5 milyon manat sərf olunacaq. DSMF-nin büdcəsinin xərclərinin 95,3 faizi pensiya ödənişləri, 2,3 faizi məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən müavinət, 2,4 faizi isə digər xərclər üçün nəzərdə tutulub.

İdris İsayev diqqətə çatdırdı ki, bu gün Azərbaycanda 15-64 yaş arasında olan əhali 71 faiz təşkil edir. 71 yaşdan yuxarı olanlar isə təxminən 6,3 faizdir. Ölkəmizdə 65 yaşından yuxarı olan insanların arasında əmək qabiliyyətli olanların sayının çox olması mühüm sayılır.

İşləyən əhalinin sayı nə qədər çox olacaqsa, pensiya sisteminin maliyyə dayanıqlığı daha möhkəm olacaq. Çünki ödənilən sosial sığorta haqları bu insanlardan asılıdır. Növbəti ildə əmək qabiliyyətli əhalinin sayının 5 milyona çatacağı qeyd olunur. Gələn il əhalinin gəlirləri 9 faiz artacaq, 54,4 milyard manata çatacaq. Bu da müsbət göstəricidir. Növbəti ildə orta aylıq əməkhaqqı 5,7 faiz artaraq 642 manat olacaq. 2019-cu ildə inflyasiya 3,8 faiz səviyyəsində nəzərdə tutulur.

## Pensiya haqlarının orta məbləği 240 manata yaxın olacaq

Növbəti ildə pensiyaçıların sayının 1 milyon 294 min təşkil edəcəyini deyən İdris İsayev məlumat verdi ki, bunun 58,3 faizi yaşa görə, 30,8 faizi əlilliyə görə, 10,9 faizi isə ailə başçısını itirməyə görə pensiya alanlardır.

Yaşa görə pensiya alanların sayında azalma müşahidə olunur. Pensiya yaşının artırılması buna təsir edib. Növbəti ildə pensiya haqlarının orta məbləği artaraq 240 manata yaxın olacaq. Pensiya haqlarında 6,3 faiz artım nəzərdə tutulur. Yaşa görə pensiyanın məbləği isə daha çox artacaq və orta hesabla 273 manat olacaq. Bu isə həyata keçirilən siyasətin əsas məqsədidir. Digər tərəfdən, İşsizlikdən Sığorta Fondunun büdcəsi 83 milyon 451 min manat məbləğində proqnozlaşdırılır. Bu qiymətləndirmə cari ilin göstəricilərindən 4,7 faiz artıq olacaq.

## Əlillik müavinətinin artırılması ilə bağlı ciddi tədbirlər görüləcək

2019-cu il ərzində Azərbaycanda məşğulluq tədbirlərinin təxminən 250 min nəfəri əhatə etməsi gözlənilir. Sosial müdafiə, sosial təminat tədbirlərinin 2,1 min nəfəri əhatə etməsi gözlənilir. Gələn il pensiya alanların sayı təxminən 1 milyon 294 min nəfər, sosial müavinət və təqaüd alanların sayı isə 571 min nəfər olaraq proqnozlaşdırılır.

İclasda həmçinin əlillərin maddi vəziyyətinin daim diqqət mərkəzində olduğu vurğulandı. Bildirildi ki, pensiya fərdi şəxsə hesabda toplanılan məbləğdən asılı olaraq təyin edilir. Əlillər də bu kateqoriyadan olan şəxslərdir. Sadəcə, onlar əlillik səbəbindən pensiyaya çıxırlar. Həmin şəxsin fərdi hesabında nə qədər vəsait toplanıbsa, ona uyğun da pensiya alır. Burada sığorta prinsipləri nəzərə alınmalıdır. Əlillər pensiya ilə yanaşı, sosial müavinət də alırlar. Növbəti ildə əlillərə verilən sosial müavinətin artırılması ilə bağlı ciddi tədbirlər həyata keçiriləcək.

## Yaşayış minimumu 180, ehtiyac meyarı 143 manat müəyyən edilib

Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov büdcə layihəsinin yaşayış minimumu və ehtiyac meyarı haqqında qanun layihələrinin müzakirəsi zamanı bildirdi ki, növbəti ildə Azərbaycanda yaşayış minimumu 180 manat, ehtiyac meyarı isə 143 manat müəyyən edilməsi təklif olunur. Qeyd edildi ki, yaşayış minimumunun bu həddə müəyyən edilməsi ölkədəki yoxsulluq səviyyəsinin 5,4 faizdən 5,1 faizə endirilməsinə öz təsirini göstərəcək.

Ehtiyac meyarı ilə bağlı məlumat verən komitə sədri qeyd etdi ki, bunun 2018-ci ildə müəyyən edilən ehtiyac meyarından artıq olması nəzərdə tutulub. Növbəti ildə ünvanlı sosial yardımların müəyyən edilməsi ilə əlaqədar olaraq ehtiyac meyarının 143 manat müəyyən edilməsi təklif olunur.

## 3 yaşına qədər uşaqlara müavinət verilməsi təklif edilir

Müzakirələr zamanı komitə sədri Hadi Rəcəbli təklif olan 180 manat yaşayış minumumunun 190 manata çatdırılmasın məqbul hesab etdi. Bildirdi ki, növbəti ildə vergi tətbiq olunmasında, sığortanın alınmasında köklü islahatların aparılması gözlənilir. Belə olan halda, qeyri-leqal məşğulluğun sığortaya cəlb edilməsi tendensiyası olacaq. İndi 1 milyondan çox qeyri-leqal məşğulluq faktı var. Növbəti il hətta sahibkarlar üçün sığorta faizlərinin aşağı salınması nəzərdə tutulur. Artıq sığortanı da, vergini də bir qurum idarə edəcək.

Hadi Rəcəbli qeyd etdi ki, yeni doğulan uşaqlara təyin edilən birdəfəlik müavinətin həcminin artırılması da nəzərdə tutulur. Üç yaşına qədər uşaqlara da müavinət verilməlidir. Ola bilsin ki, bununla bağlı yeni qanun da hazırlansın.

## Orta aylıq əməkhaqqı yavaş-yavaş qaldırılmalıdır

İclasda Maliyyə Nazirliyinin Sosial sahələrin maliyyəsi şöbəsinin müdiri Xaqani Rzayev, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının vitse-prezidenti Vüqar Zeynalov çıxış edərək layihələrlə bağlı fikirlərini açıqladılar.

Müzakirələr zamanı parlamentin səhiyyə komitəsinin sədr müavini Musa Quliyev, deputatlardan Aytən Mustafazadə, Yaqub Mahmudov, Səttar Mehbalıyev, Elmira Axundova, İlham Məmmədov qanun layihələri ilə bağlı fikirlərini bildirib təkliflərlə çıxış etdilər.

İdris İsayev təkliflərə münasibət bildirdikdən sonra qanun layihələrinin hər biri Milli Məclisin plenar iclasının müzakirəsinə tövsiyə olundu.

***Fərizə ƏHMƏDOVA, "Azərbaycan"***

# Amalya Əliş qızı Pənahova



Azərbaycan mədəniyyətinə ağır itki üz vermişdir. Müasir Azərbaycan teatrı və kino sənətinin tanınmış nümayəndəsi, Dövlət mükafatı laureatı, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, xalq artisti, sənətşünaslıq üzrə elmlər doktoru, professor Amalya Əliş qızı Pənahova 2018-ci il noyabr ayının 8-də ömrünün 74-cü ilində vəfat etmişdir.

Amalya Pənahova 1945-ci il iyunun 15-də Gəncə şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o, 1962-1966-cı illərdə Azərbaycan Dövlət Teatr İnstitutunun dram və kino aktyorluğu fakültəsində ali təhsil almışdır.

1964-cü ildə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının aktyor truppasına qəbul edilən Amalya Pənahova burada 1992-ci ilədək səhnə fəaliyyətini davam etdirmişdir. O, 1992-ci ildə Bakı Bələdiyyə Teatrını yaratmış və ömrünün sonunadək həmin teatra rəhbərlik etmişdir.

Zəngin yaradıcılıq axtarışları sayəsində milli teatr və kino sənətinə dəyərli töhfələr vermiş Amalya Pənahova müasir Azərbaycan mədəniyyətində özünəməxsus layiqli yer tutur. Azərbaycan teatrının parlaq ənənələri zəminində formalaşan və bu irsə həmişə sadiq qalan sənətkar gözəl ifa tərzi və yüksək səhnə mədəniyyəti ilə qısa müddət ərzində teatr və kino həvəskarlarının rəğbətini qazanmış, sənətsevərlərin qəlbinə yol tapmışdır. İfadəli səs tembrinə malik istedadlı aktrisanın milli və dünya dramaturji irsinə müraciət edərək teatr səhnəsində böyük məharətlə canlandırdığı çox sayda yaddaqalan obrazlar öz təbiiliyi, həyatiliyi və lirik-psixoloji dərinliyi ilə səciyyələnir. Onun sənətkar olaraq müasirlərin daxili aləminə peşəkarlıqla nüfuz etmək bacarığı mütəxəssislər tərəfindən təqdirlə qarşılanmışdır.

Amalya Pənahovanın televiziya tamaşalarında yaratdığı unudulmaz personajlar milli televiziyanın fondunda diqqətəlayiq sənət nümunələri kimi qorunub saxlanmaqdadır. Kinofilmlərdəki müxtəlif səpkili rolları aktrisanın bu sənətin incəliklərinə dərindən bələd olduğunu aydın təcəssüm etdirir. Amalya xanımın ekran həyatı bəxş etdiyi dolğun və bitkin surətlər sırasında tarixi-mədəni keçmişimizlə bağlı qadın obrazları Azərbaycan kinematoqrafiyasının nailiyyətlərindən sayılır.

Teatr sənətini pedaqoji fəaliyyətlə uğurla əlaqələndirən Amalya Pənahova respublikada gənc aktyorların yetişdirilməsi üçün böyük əmək sərf etmişdir. O, ölkənin ictimai-siyasi həyatında yaxından iştirak etmiş, ikinci çağırış Azərbaycan Respublikası Milli Məclisinə deputat seçilmişdir.

Amalya Pənahovanın Azərbaycan mədəniyyətinin inkişafı sahəsində göstərdiyi xidmətlər lazımınca qiymətləndirilmişdir. O, bir sıra mükafatlara və fəxri adlara layiq görülmüş, müstəqil Azərbaycan Respublikasının ali dövlət mükafatlarından "Şöhrət" və "Şərəf" ordenləri və "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilmişdir.

Tanınmış sənətkar, teatr təşkilatçısı, pedaqoq və səmimi insan Amalya Pənahovanın xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.

**İlham Əliyev, Mehriban Əliyeva, Novruz Məmmədov, Oqtay Əsədov, Ramiz Mehdiyev, Əli Əhmədov, Fərəh Əliyeva, Əbülfəs Qarayev, Ceyhun Bayramov, Anar Rzayev, Eldar Quliyev, Azər Paşa Nemətov, Rasim Balayev, Şəfiqə Məmmədova, Hacı İsmayılov, Nurəddin Quliyev.**

***

*Mərhumun cənazəsi vidalaşmaq üçün 2018-ci il noyabrın 9-da saat 11.00-dan 13.00-dək Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının binasında qoyulacaqdır (Füzuli meydanı, 1).*

# Azərbaycan Sulavesi adasında baş vermiş zəlzələ ilə əlaqədar İndoneziyaya humanitar yardım edib

İndoneziyanın Sulavesi adasında baş vermiş zəlzələnin törətdiyi fəsadların miqyasını nəzərə alaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq 50 min ABŞ dolları məbləğində vəsait humanitar məqsədlə İndoneziya tərəfinə təqdim edilib.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən məlumat verilib. Qeyd edilib ki, yardımı qəbul edən məsul qurum Təbii Fəlakətlərin Nəticələrinin Aradan Qaldırılması Milli Agentliyi dövlətimiz tərəfindən göstərilmiş humanitar dəstəyə görə Azərbaycan xalqına və rəhbərliyinə İndoneziya Respublikası adından minnətdarlığını bildirib.

Qeyd etmək istərdik ki, Azərbaycan bu ölkəyə sayca ikinci dəfə humanitar yardım göstərib və İndoneziya xalqı ilə daim həmrəy olduğunu bir daha ifadə edib.

# Ədliyyə naziri Balakən rayonunda vətəndaşları qəbul edib

Azərbaycan Prezidenti İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması barədə tapşırıqlarına uyğun olaraq, Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların bölgələrdə qəbuluna xüsusi diqqət yetirilir.

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, noyabrın 8-də ədliyyə naziri Fikrət Məmmədov Balakən rayonundakı Mədəniyyət Mərkəzində Balakən, Zaqatala və Qax rayonlarından olan vətəndaşların qəbulunu keçirib.

Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə həllini tapıb. Digər müraciətlər üzrə nazirliyin qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib. Səfər zamanı ədliyyə naziri həmçinin yerli ədliyyə və məhkəmə orqanlarının fəaliyyəti və iş şəraiti ilə tanış olub, ədliyyə işçiləri ilə müşavirə keçirib.

# Parlamentin səhiyyə komitəsinin iclasında "Psixoloji yardım haqqında" qanun layihəsi ikinci oxunuşda müzakirə olunub

Noyabrın 8-də Milli Məclisin Səhiyyə komitəsinin iclası keçirilib. AZƏRTAC xəbər verir ki, komitə sədri Əhliman Əmiraslanov iclasın gündəliyi barədə məlumat verib. İclasda "Psixoloji yardım haqqında" qanun layihəsinə, "Dərman vasitələri haqqında" qanunda və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihələrinə baxılıb.

Komitə sədri "Psixoloji yardım haqqında" qanun layihəsi barədə məlumat verib. Bildirib ki, qanun layihəsi altı fəsil, 22 maddədən ibarətdir. Qanun layihəsində psixoloji yardımla bağlı qaydalar, tələblər, şərtlər və bundan irəli gələn məsuliyyət növləri əksini tapıb. Qanun psixoloji yardım alan şəxslərin və psixoloqların hüquqlarını və vəzifələrini müəyyən edir, psixoloji yardım göstərilməsi sahəsində münasibətləri tənzimləyir.

Diqqətə çatdırılıb ki, Azərbaycanda daimi yaşayan vətəndaşlığı olmayan şəxslər psixoloji yardım sahəsində Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər hüquqlara malikdirlər. Qanunda psixoloji profilaktika və maarifləndirmə, psixoloji məsləhət, psixoloji dəstək, psixoloji diaqnostika, psixoterapiya, psixoloji reabilitasiya və psixoloji korreksiya, psixoloji ekspertiza, psixoloji treninq psixoloji yardımın növləri olaraq təsbit olunur.

Sənəddə bildirilir ki, dövlət vətəndaşların vaxtında, keyfiyyətli psixoloji yardım almaq hüququna təminat verir. Psixoloji yardımın göstərilməsi könüllülük, konfidensiallıq, qanunçuluq, humanistlik, insan və vətəndaş hüquq və azadlıqlarına əməl edilməsi prinsipləri əsasında həyata keçirilir. Şəxsin psixoloji vəziyyəti və ona göstərilən psixoloji yardım haqqında məlumatlardan sərbəst istifadə hüququ onun özünə və qanunla nəzərdə tutulmuş hallarda buna icazə verilən şəxslərə məxsusdur.

Əhliman Əmiraslanov deyib ki, sənədə parlamentin plenar iclasında birinci oxunuşda baxılıb və bir sıra təkliflər verilib. İkinci oxunuşa təqdim olunan qanun layihəsində bu təkliflər nəzərə alınıb.

"Dərman vasitələri haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə görə sənədin "Dərman vasitələri ilə davranış sahəsində dövlətin əsas vəzifələri" adlı 3-cü maddəsinə bəzi texniki dəyişikliklər nəzərdə tutulub. Digər bir dəyişikliyə əsasən, bioloji fəallığa malik qida əlavələrinin dərman vasitələri ilə eyni tərkibli və eyni dozalı olub-olmamasını müəyyən etmək məqsədilə bioloji fəallığa malik qida əlavələri müvafiq icra hakimiyyəti orqanı tərəfindən ekspertizadan keçirilir.

İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulan dəyişikliyə əsasən, dərman vasitələrinin istehsalına, daşınmasına və saxlanmasına, eləcə də topdan satışına dair tələblərin pozulmasına görə vəzifəli şəxslər min beş yüz manatdan iki min beş yüz manatadək, hüquqi şəxslər beş min manatdan yeddi min manatadək məbləğdə cərimə edilir. Həmçinin bu Məcəllənin 221.10-cu maddəsində nəzərdə tutulmuş xəta inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbehvermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədildikdə vəzifəli şəxslər iki min beş yüz manatdan dörd min beş yüz manatadək, hüquqi şəxslər altı min manatdan səkkiz min manatadək məbləğdə cərimə olunacaqlar.

Qanun layihəsinə əsasən, aptek təşkilatlarına dair tələblərin pozulmasına görə vəzifəli şəxslər beş yüz manatdan yeddi yüz manatadək, hüquqi şəxslər min manatdan iki min manatadək məbləğdə cərimələnəcəklər. Bu Məcəllənin 452.3-cü maddəsində nəzərdə tutulmuş xəta inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbehvermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədildikdə vəzifəli şəxslə min beş yüz manatdan iki min beş yüz manatadək, hüquqi şəxslər beş min manatdan yeddi min manatadək məbləğdə cərimə ediləcəklər.

Müzakirələr zamanı deputatlar qanun layihələri ilə bağlı fikir və təkliflərini səsləndirdilər.

Hər üç qanun layihəsi Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində dövlət bayrağı dalğalanır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra milli dövlət bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaqdır. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq. Eşq olsun Azərbaycan bayrağına!*

**İlham ƏLİYEV**



GILAN HOLDING

Azərbaycan xalqını

Dövlət Bayrağı Günü

münasibətilə təbrik edir, hər bir ailəyə səadət, sevinc dolu günlər və ölkəmizə əbədi müstəqillik arzulayır

Mingəçevir - 70

# Yaşı artdıqca gəncləşən şəhər

Bu şəhər neçə illərdir ki, ölkəmizi nur çeşməsinə qərq edir. Bəlkə də elə buna görə onu "nur şəhəri" adlandırırlar. 70 yaşını qeyd etməyə hazırlaşan şəhər payız olsa da, yaraşıqlı küçə və meydanları, park və xiyabanlarındakı al-əlvan gülləri, yaşıllıqları ilə baharı xatırladır.



Yetmiş il əvvəl - Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 11 noyabr 1948-ci il tarixli qərarına görə, Mingəçevir qəsəbəsinə şəhər statusu verildi. Bununla da Mingəçevirin həyatında yeni dövr başladı. Mingəçevir sürətlə inkişaf edib böyüdü, güclü və müasir sənaye şəhərinə çevrildi. Mingəçevir Su Elektrik Stansiyasının ardınca tikilib istifadəyə verilən Azərkabel, yol maşınları, şüşə lifi, maşınqayırma, izolit zavodları, toxuculuq kombinatı və digər istehsal müəssisələri onun sənaye potensialını sürətlə artırdı. Şəhərin tikilib-qurulmasında fədakarlıq nümunəsi göstərən çox sayda insanın əməyi var. Şəhərin ilk qurucularından söz düşəndə Qəşəm İsmayılovun, İsa Salahovun, Baba Əliyevin, Seyidağa Ağayevin, Milan Yusibovun, Miri Ağakişiyevin, Rəhbər Həsənovun, Veysəl Mustafayevin, Məhbubə Bağırovanın və başqalarının adı bu gün də hörmət və ehtiramla çəkilir. Onlar öz fədakarlıqları ilə Mingəçevirə şan-şöhrət gətirmiş, onun inkişafına misilsiz töhfə vermişlər.

Mingəçevirin dünənindən danışarkən adı şəhərin şərəfli tarixinə qızıl hərflərlə yazılmış İslam İslamzadə, Kamran Hüseynov, Züleyxa Həsənova, Sosialist Əməyi qəhrəmanları Sarvan Salmanov, Bəhlul Bayramov, Yaqub Rüstəmov da həmişə minnətdarlıqla xatırlanırlar.

Ölkənin ən əsas enerji təminatçısı Mingəçevirin tikilib-qurulmasında, təbii ki, ən böyük şərt dövlətin davamlı qayğısıdır. Xalqımızın ümummilli lideri Heydər Əliyev Azərbaycana birinci dəfə rəhbərlik etdiyi illərdə də Mingəçeviri daim diqqət mərkəzində saxlamışdır. Həmin dövrdə Mingəçevirdə Azərbaycan İstilik Elektrik Stansiyası, texniki-rezin məmulatları, yol-tikinti maşınları təmiri, aqrar sənaye dəmir-beton məmulatları və çörək zavodları, poliqrafiya müəssisəsi, evtikmə kombinatları, 8.130 şagird yerlik 8 ümumtəhsil məktəb, 2.240 yerlik 8 məktəbəqədər uşaq müəssisəsi, 1848 çarpayılıq xəstəxana, poliklinika, şahmat məktəbi, Gənc texniklər stansiyası və digər çox sayda sosialyönümlü obyektlər tikilib istifadəyə verilmişdir.

Ulu öndər Heydər Əliyevin Mingəçevirə çoxsaylı səfərləri də olmuşdur. Bu səfərlərin birində - 1998-ci il sentyabrın 8-də şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşündə demişdir: "Mingəçevirin tikilməsində, qurulmasında, inkişaf etməsində vaxtilə mən çox zəhmət çəkmişəm. İndi mən buraya gəlib bu hündür binaları, gözəl küçələri, gözəl meydanları, gözəl yaşıllıqları görəndə sevinirəm. Çünki 30 il bundan öncə mən Azərbaycanda rəhbərliyə başlayarkən biz Azərbaycanın hər bir yerində quruculuq işləri aparırdıq. Ancaq Mingəçevir gənc şəhər olduğuna görə, energetiklər şəhəri olduğuna görə buraya xüsusi fikir verirdik".

Bütün istiqamətlərdə öz şərəfli siyasi varislik missiyasını uğurla reallaşdıran Prezident İlham Əliyev də Mingəçevirə münasibətdə təməlini ulu öndərin qoyduğu ənənəni yaradıcılıqla davam etdirir. Mingəçevir Şəhər İcra Hakimiyyəti başçısının birinci müavini İlham İsmayılov nur şəhərinin şərəfli keçmişindən bugünkü şöhrətinədək həvəslə söhbət açır:

- Mingəçevirin tikilib-qurulmasında xalqımızın ümummilli lideri Heydər Əliyevin mislisiz tarixi xidmətləri var. Şəhər sakinlərinin qovuşduğu xoş güzəran, firavan həyat tərzi ulu öndərin arzularının gerçək təntənəsidir. Son illər Mingəçevir əsl intibah dövrünü yaşayır. Prezident İlham Əliyevin isti və doğma münasibəti, dövlətin davamlı qayğısı Mingəçeviri dünyanın inkişaf etmiş müasir şəhərləri səviyyəsinə qaldırmış, şəhər sakinlərinin problemsiz sosial həyat tərzini təmin etmişdir. Cənab İlham Əliyevin təşəbbüsü ilə yaradılan Mingəçevir Sənaye Parkı artıq uğurlu start götürmüşdür. İlk mərhələdə iplik fabriki işə salınmış, 600 nəfərdən çox şəhər sakini işlə təmin olunmuşdur. Sənaye parkı tam gücü ilə fəaliyyət göstərəndə Mingəçevirdə işsizlik problemi olmayacaq.

Bu yaxınlarda şəhərdə "ASAN xidmət" də istifadəyə verilmişdir. Yaradılan bu unikal şəraitdən, nümunəvi xidmətdən indi mingəçevirlilərlə yanaşı, ətraf rayonların sakinləri də yararlanırlar. Dövlətin qayğısı Mingəçeviri abad diyara çevirib. Yüksək zövqlə salınan yeni parklar, xiyabanlar, rahat yollar, abad məhəllələr hər kəsdə minnətdarlıq hissi doğurur, məmnunluq yaradır. İndi Mingəçevirdə qaz, su, elektrik enerjisi ilə bağlı problem, demək olar ki, yoxdur. Odur ki, Mingəçevir 70 yaşını xoş ovqatla, yüksək əhvali-ruhiyyə ilə qeyd edir.

Şəhərin bayram libaslı küçələrində gəzib-dolaşdıqca çöhrəsindən təbəssüm süzülən insanlarla qarşılaşırıq. Nur şəhərinin sakinləri əsl bayram ovqatı ilə yaşayırlar. Gülər gözlər, fərəhli üzlər şəhərin bayram libası ilə qəribə bir ahəngdarlıq yaradır. Şəhərin ilk qurucularından olan Qəşəm İsmayılov ilə də söhbətimiz maraqlı alındı. Qəşəm müəllim Mingəçevir şəhər komsomol komitəsinin birinci katibi olmuş, partiya, təsərrüfat orqanlarında rəhbər vəzifələrdə çalışmışdır. O, Mingəçevirin bugünündən qürurlanır:

- Ölkəyə nur paylayan bir şəhərin tikilib-qurulmasında iştirakımdan, burada yaşayıb-işləməyimdən qürur duyuram. Yetmiş yaşlı şəhərimizin hər qarışı bu gün cənnətə bənzəyir. Mingəçevirlilər çox qədirbiləndirlər. Mingəçevir gözlərimin qarşısında kiçik bir qəsəbədən abad və müasir şəhərə çevrilmişdir. Bu sahədə xalqımızın ümummilli lideri Heydər Əliyevin böyük xidməti olub. Bu gün biz doğma şəhərimizdə xoşbəxt və firavan yaşayırıq. Gənc nəslə bir tövsiyəm də var. Hamımızın bir vətəni var. Onun hər qarışını, aranını, dağını sonsuz məhəbbətlə sevin, ana yurdumuzu cənnətə döndərmək üçün ürəyinizin odunu, əllərinizin hərarətini əsirgəməyin.

70 yaşlı Mingəçevir gənclik enerjisi ilə sabaha inamla addımlayır. Bu şəhərin payladığı nurdan hər evə, hər ailəyə pay düşür.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***







# Bostonda Azərbaycanın Dövlət Bayrağı Günü təntənəsi



ABŞ-ın ən böyük və tarixi şəhərlərindən olan, ölkənin təhsil mərkəzlərindən biri kimi tanınan Boston şəhərində Azərbaycanın Dövlət Bayrağı Günü ilə bağlı tədbir keçirilib.

Azərbaycan icmasının nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə Azərbaycan Respublikasının ABŞ-dakı səfiri Elin Süleymanov çıxış edərək bunun cümhuriyyətimizin 100 illik yubileyi ilə bağlı silsilə tədbirlər çərçivəsində növbətisi olduğunu qeyd edib.

Müsəlman Şərqində ilk demokratik respublika - Azərbaycan Xalq Cümhuriyyətinin mirası olan bayrağın 100 il öncə cümhuriyyət qurucuları tərəfindən ucaldılmasından danışan səfir Azərbaycanın müstəqilliyini bərpa etməsindən sonra bir daha onun ölkəmizin rəmzinə çevrildiyini vurğulayıb. O, Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində Prezident İlham Əliyev tərəfindən atılan məqsədyönlü addımları xüsusi vurğulayıb. Hazırda Bostonda keçirilən ABŞ-Xəzər İnnovasiya Forumuna diqqət çəkən səfir bu forumun Prezident İlham Əliyevin innovasiya siyasətinin uğurunun göstəricisi olduğunu qeyd edib. O, bu günlərdə innovasiya agentliyinin təsis edilməsinin dövlət başçısının innovasiya sahəsinin inkişafına göstərdiyi diqqətin bariz nümunəsi olduğunu diqqətə çatdırıb.

Daha sonra Yüksək Texnologiyalar Parkının direktoru Tural Kərimli çıxış edərək Azərbaycanda innovativ texnologiyaların inkişafı üçün atılan addımlardan, startap ekosisteminin inkişafı üzrə görülən işlərdən, aparılan islahatlardan danışıb.

Bostonda yaşayan Azərbaycan icmasının nümayəndəsi Mirkamran Abdullayev çıxış edərək Dövlət Bayrağı Gününün hər bir azərbaycanlı üçün önəmindən bəhs edib.

Qeyd edək ki, bu tədbirin təşkil edildiyi gün Azərbaycandan gəlmiş geniştərkibli nümayəndə heyətinin iştirakı ilə birinci ABŞ-Xəzər İnnovasiya Forumu keçirilib.

# Atəşkəs rejimi 23 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, Ermənistan Respublikasının İcevan rayonunun Paravakar, Berd rayonunun Çinari kəndlərində yerləşən mövqelərdən Azərbaycan Respublikasının Ağstafa rayonunun Köhnəqışlaq, Tovuz rayonunun Ağbulaq, Muncuqlu kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Qaraqaşlı, Sarıcalı, Novruzlu, Füzuli rayonunun Qaraxanbəyli, Kürdlər, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

***AZƏRTAC***







# Bayrağımız qürur mənbəyimizdir

Noyabrın 8-də Dövlət Bayrağı günü münasibəti ilə Quzanlı qəsəbəsindən Sultanbud təpəsinə doğru izdihamlı yürüş keçirilmişdir. Bu təpənin zirvəsində üçrəngli bayrağımız əzəmətlə dalğalanır. Yürüş iştirakçılarının sayı kifayət qədər çox idi. Ağdam Rayon İcra Hakimiyyətinin, Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin və Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə İctimai Birliyinin birgə təşkilatçılığı ilə keçirilən bu tədbir əsl el şənliyini xatırladırdı.





Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov tədbirdə çıxış edərək bu əlamətdar gün, əziz bayram münasibətilə iştirakçıları təbrik edib dedi:

- Üçrəngli, ay-ulduzlu dövlət bayrağımız bizim üçün son dərəcə əziz və müqəddəsdir. Hər birimizin qürur mənbəyinə, and yerinə çevrilən bu bayraq tarixin ağır sınaqlarından çıxıb, oddan-alovdan keçib. Qarabağ savaşında igid oğullarımızın başı üzərində bu bayraq dalğalanıb. Onların bir çoxu şəhid olub. Amma Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin yeritdiyi müdrik siyasət bizi tezliklə qələbəyə, həsrətini çəkdiyimiz doğma torpaqlarımıza qovuşduracaqdır. Bu inamı dövlət başçısının yenilməz iradəsi, ordumuzun gündən-günə artan qüdrəti yaradır. Üçrəngli bayrağımızın ən yaxın zamanda Ağdamda, Şuşada, Laçında, Kəlbəcərdə, Ermənistan silahlı qüvvələrinin işğalı altında olan bütün ərazilərimizdə dalğalanacağına yenilməz inam bu gün hər bir ağdamlının varlığına hakim kəsilib. Bu inamın doğrulacağı gün yaxındadır. Hər birinizə o günün sevincini yaşamağı arzulayıram.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Birlik Komandirinin müavini polkovnik Babək Səmidli, Azərbaycanın Milli Qəhrəmanı Vahid Quliyev tədbir iştirakçılarına xoş arzularını çatdırdılar.

Sonra Dünya Azərbaycanlıları Mədəniyyət Mərkəzinin vitse-prezidenti Ramin Qasımov çıxış etdi. O, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin bütün dünya azərbaycanlılarının ümumi problemi olduğunu vurğulayaraq qeyd etdi ki, Azərbaycanın musiqi beşiyi olan Ağdamın böyük hissəsi uzun illərdir ki, Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Ağdamlılar məcburi köçkün kimi respublikanın müxtəlif bölgələrinə səpələniblər. Onlar ən çətin günlərində belə ağır məhrumiyyətlərə dözüb, dövlətçiliyə sədaqətli olublar. Prezident İlham Əliyevin ağdamlılara doğma və isti münasibəti hər kəsin könlündə minnətdarlıq hissi doğurur, məmnunluq yaradır. Dövlət başçısının qayğısı ilə Ağdam rayonu ərazisində salınan yeni qəsəbələrin sayı 18-ə çatır. Bu davamlı qayğı Quzanlı qəsəbəsini müasir və abad şəhərə çevirmişdir. Bütün bunlar qədirbilən Ağdam camaatının haqqıdır. Ancaq qarşıda daha məsul, daha şərəfli vəzifələr durur. Biz xalq-dövlət birliyinin yenilməz gücü ilə işğal altındakı bütün ərazilərimizi azad edəcək, üçrəngli bayrağımızı Qarabağın bütün guşələrində dalğalandıracağıq. Bugünkü tədbirin möhtəşəmliyi göstərir ki, birliyimiz hər şeyə qadirdir.

Hərbi vətənpərvərlik mahnılarının mahir ifaçısı Şəmistan Əlizamanlı tədbirdə maraqlı proqramla çıxış etdi. Məşhur tarzən Ramiz Quliyevin, müğənni Elza Seyidcahanın ifaları alqışlarla qarşılandı. Tədbir Ağdamın "Şur" xalq çalğı alətləri ansamblı üzvlərinin ifasında "Qarabağ şikəstəsi" ilə başa çatdı.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

# Dövlət rəmzinə məhəbbətin təzahürü





Dövlət Sərhəd Xidmətində "9 noyabr - Dövlət Bayrağı günü" silsilə tədbirlərlə qeyd olunur. Bütün hərbi hissə və bölmələrdə keçirilən mədəni-kütləvi tədbirlərdə elm və incəsənət xadimləri, yerli icra hakimiyyəti orqanlarının və ictimaiyyətin çoxsaylı nümayəndələri iştirak etmişlər.



Dünən bu münasibətlə Nəsimi Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsində təntənəli tədbir keçirilmişdir. Tədbir iştirakçıları əvvəlcə Heydər Əliyev Mərkəzi ilə tanış olmuş, ulu öndərin büstü önünə əklil qoymuşlar.

Dövlət himninin səslənməsi ilə başlanan mərasimdə Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyevin təbrik teleqramı oxunmuşdur. Mərasimdə Azərbaycan tarixinin şanlı səhifələrindən olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və Şərqin ilk demokratik respublikasının dövlət rəmzi olan üçrəngli, ay-ulduzlu bayrağın qəbul olunması haqqında ətraflı məlumat verilmiş, bu əlamətdar hadisənin təkcə Azərbaycan üçün deyil, bütün müsəlman dünyası üçün mühüm əhəmiyyət kəsb etdiyi vurğulanmışdır.

Tədbirdə Azərbaycan Xalq Cümhuriyyəti süquta uğradıqdan 70 il sonra üçrəngli bayrağımızın məhz ulu öndər Heydər Əliyevin təşəbbüsü və iradəsi sayəsində yenidən bərpa edilərək 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının, 1991-ci il fevralın 5-də isə Azərbaycan Respublikasının rəsmi dövlət bayrağı kimi təsdiq olunması minnətdarlıq hissi ilə xatırlandı.

Azərbaycan Respublikasının müstəqilliyi bərpa edildikdən sonra dövlət bayrağımızın milli suverenliyin simvolu kimi ölkəmizin bütün vətəndaşları üçün müqəddəs dövlətçilik rəmzlərindən birinə çevrilməsi, dövlət bayrağına hörmət və ehtiramın ən böyük nümunəsini ulu öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nümayiş etdirmələri qürur hissi ilə vurğulandı.

Prezident İlham Əliyevin dövlət bayrağımıza yüksək məhəbbətin təzahürü olaraq 2007-ci il noyabrın 17-də Bakıda dövlət bayrağı meydanının yaradılması barədə, 2009-cu il noyabrın 17-də isə Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında sərəncamlar imzalaması və dövlət bayrağı meydanının açılışında "Bizim bayrağımız qürur mənbəyimizdir. Bu bayraq bizim milli dəyərimizdir. Bu bayraq meydanının yaradılması Azərbaycanın gücünü, Azərbaycan xalqının öz dövlətinə sevgisini, dövlət rəmzlərimizə ehtiramımızı göstərir" deməsi iftixarla xatırlandı.

Mərasimdə çıxış edən Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov bayram münasibəti ilə sərhədçiləri təbrik etdi.

Tədbirdə Heydər Əliyev dövlətçilik ideyalarına daim sadiq qalan, sərhədlərimizin keşiyində qürurla dayanan əsgərlərimizin bundan sonra da müstəqilliyimizin simvolu olan dövlət bayrağımızın daim yüksəklərdə dalğalanması üçün əllərindən gələni əsirgəməyəcəklərinə, öz fədakar xidmətləri ilə göstərilən etimadı layiqincə doğruldacaqlarına əminlik ifadə olunmuşdur.

Mərasimdə xidmətdə fərqlənmiş bir qrup hərbi qulluqçuya mükafatlar təqdim olunmuşdur. Tədbirin sonunda Dövlət Sərhəd Xidmətinin Nümunəvi Hərbi Orkestri və incəsənət ustaları sərhədçilər qarşısında geniş konsert proqramı ilə çıxış etmişlər.

Dünən Dövlət Sərhəd Xidməti Akademiyasında Dövlət Bayrağı Muzeyinin direktoru, tarix elmləri üzrə fəlsəfə doktoru Könül İmamverdiyevanın akademiyanın kollektivi ilə görüşü də keçirilmişdir. K.İmamverdiyeva "Dövlət bayrağımız qürur mənbəyimizdir" mövzusunda mühazirə-təqdimatla şəxsi heyətin qarşısında çıxış etmişdir. O, Azərbaycan Respublikasının dövlət bayrağı, həmçinin Azərbaycan ərazisində mövcud olmuş dövlətlərin, xanlıqların bayraqları barədə ətraflı məlumat vermiş, sərhədçi kursantların suallarını cavablandırmışdır.

*"Azərbaycan"*

GCM GLOBAL ENERGY AZERBAIJAN

"Global Energy Azerbaijan"
şirkəti və onun törəmə şirkətləri

Azərbaycan xalqını

"Absheron Operating Company"
"Binagadi Oil Company"
"Karasu Operating Company"
"Shirvan Operating Company"
"Neftechala Operating Company"

Dövlət Bayrağı Günü

münasibətilə təbrik edir,
hər bir ailəyə səadət,
firavan həyat arzulayır!




# Heydər Əliyev Fondu Azərbaycanı Almaniyada layiqincə təbliğ edir

Əvvəli 1-ci səh.

Ölkəmizin Almaniyanın Cənubi Qafqazda əsas iqtisadi tərəfdaşı olduğunu, Almaniya şirkətlərinin "Cənub qaz dəhlizi" layihəsində uğurla iştirak etdiklərini, 200-ə qədər alman şirkətinin Azərbaycanda fəaliyyət göstərdiyini vurğulayan Ramin Həsənov Prezident İlham Əliyevin və Kansler Angela Merkelin iştirakı ilə iki ölkənin iş adamları ilə keçirilmiş görüşün Azərbaycan-Almaniya iqtisadi əməkdaşlığında yeni layihələrin həyata keçirilməsi üçün geniş meydan yaratdığını qeyd edib.

Ramin Həsənov, həmçinin xalqlarımız arasında münasibətlərin 200 illik tarixinə toxunaraq, elmi, mədəni və humanitar sahədə mövcud əməkdaşlıqdan danışıb. Buna nümunə olaraq, Azərbaycanda alman irsinin təşviq olunmasını, Almaniyada azərbaycanlı gənclərin təhsil almasını, Bakıda Göte İnstitutunun açılmasını, Bakı və Mayns, Sumqayıt və Lüdviqshafen şəhərləri arasında mövcud olan "qardaşlaşma"ları, nüfuzlu Berlin Humboldt Universitetində Azərbaycan tarixi kafedrasının fəaliyyət göstərməsini qeyd edib.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən danışan səfir Almaniyanın Minsk qrupunun üzvü kimi münaqişənin ədalətli və beynəlxalq hüquqa söykənən həllini dəstəklədiyini bildirib. Ramin Həsənov vurğulayıb ki, Almaniya hökumətinin də bölüşdüyü Dağlıq Qarabağ və ətraf rayonların Azərbaycanın ərazisi olması faktını işğalçı Ermənistan nəhayət ki, qəbul etməlidir.

Bundestaqın deputatı, Almaniya-Cənubi Qafqaz parlament qrupunun sədri Yohannes Kars çıxışında 20 ildən bəri davam edən deputat fəaliyyəti dövründə Azərbaycanın keçdiyi böyük inkişaf yolunun şahidi olduğunu deyib. O, rəhbərlik etdiyi parlament qrupunun adından Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi münasibətilə xalqımızı təbrik edib. Almaniyalı deputat bildirib ki, bundestaqdakı Cənubi Qafqaz parlament qrupunun Azərbaycanla bağlı fəaliyyəti iki prioritetə malikdir. Bunlardan biri ölkələrimiz arasında iqtisadi və mədəni əlaqələrin təşviqi, digəri isə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə töhfə verməkdir. Yohannes Kars sözügedən münaqişənin hər zaman yenidən alovlana biləcəyini əsas gətirərək onun tezliklə həllinə nail olunmasının zəruriliyini vurğulayıb.



Almaniya Xarici İşlər Nazirliyinin xarici elm, təhsil, tədqiqat və mədəniyyət siyasəti üzrə xüsusi nümayəndəsi səfir Haydrun Tempel qeyd olunan 100 illik yubiley münasibətilə Almaniya hökuməti adından Azərbaycanı təbrik edib. Alman diplomat ölkəsinin digər sahələrlə yanaşı, mədəni və humanitar məsələlərdə də Azərbaycanla sıx əməkdaşlıq etdiyini diqqətə çatdırıb və Cənubi Qafqazda alman məskənlərinin salınmasının 200 illik yubileyi münasibətilə həyata keçirilən layihələri vurğulayıb. Haydrun Tempel, həmçinin Azərbaycanın nəhəng regional layihələrin təşəbbüskarı və iştirakçısı olduğunu, ölkəmizin bölgədə böyük iqtisadi gücə çevrildiyini qeyd edib. Almaniya hökumətinin təmsilçisi, eyni zamanda, 2016-cı ilədək Almaniyanın ölkəmizdə səfiri olması ilə əlaqədar respublikamızın 100 illik yubileyinin onun diplomatik fəaliyyətinə birbaşa aidiyyəti olduğunu bildirib.

Çıxışlardan sonra Azərbaycan Xalq Cümhuriyyətinə həsr olunan sənədli film nümayiş etdirilib.

Tədbirdə tanınmış musiqiçilər Elçin Şirinovun, Şəhriyar İmanovun ifasında musiqi proqramı təqdim olunub.

**AZƏRTAC**

# Bakıda beşinci bayraq festivalı keçirilib






Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü münasibətilə Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə Bakıda beşinci bayraq festivalı keçirilib.

Festivalda rəsmi şəxslər, Milli Məclisin deputatları, hərbçilər, gənclər və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, mərasim Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsi ilə başlayıb. Azərbaycan əsgərlərinin təntənəli hərbi andından sonra ulu öndər Heydər Əliyevin Azərbaycan bayrağı haqqında kəlamları nümayiş etdirilib.

Gənclər və idman nazirinin müavini İntiqam Babayev ənənəyə uyğun olaraq hər il 9 noyabr - Azərbaycan Dövlət Bayrağı Günü münasibətilə bayraq festivalının keçirildiyini deyib. Bu il beşinci festivalın təşkil edildiyini vurğulayan nazir müavini belə layihələrin gənclərimiz arasında dövlət rəmzlərinin təbliği, onlarda vətənpərvərlik hisslərinin tərbiyəsində müsbət rol oynadığını bildirib.

Tədbirdə Azərbaycan, dövlət bayrağımızla bağlı videoçarx nümayiş etdirilib. Sonra aprel döyüşlərinin qəhrəmanları, eləcə də Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş parad zamanı səmada dövlət bayrağımızın təsvirini yaradan pilotlar səhnəyə dəvət ediliblər. Bu an tamaşaçılar tərəfindən sürəkli alqışlarla qarşılanıb.

İstedadlı gənclərin əl işlərindən ibarət yaradıcılıq nümunələrinin də nümayiş etdirildiyi festival incəsənət nümayəndələrinin vətənpərvərlik ruhunda ifalarla zəngin olan konsert proqramı ilə davam edib. Xatırladaq ki, Prezident İlham Əliyevin sərəncamı ilə hər il noyabrın 9-u Azərbaycanda Dövlət Bayrağı Günü kimi qeyd edilir.

## 10 noyabr Ümumdünya Gənclər Günüdür

# "Hər birimiz vətənimizin təbliğatçısı olmalıyıq"

Əslində, ilin bütün günləri onlarındır. Çünki təkcə ömrün deyil, həm də arzularının, ümidlərinin, gələcəyə sonsuz inamlarının baharındadırlar. Ancaq 10 noyabr xüsusi olaraq Ümumdünya Gənclər Günü kimi qeyd edilir. Buna qərar bütün dünyada sülh, gənclərin hüquqları, xalqların müstəqilliyi, qabaqcıl gənclərin beynəlmiləl həmrəyliyi uğrunda mübarizə aparan Ümumdünya Demokratik Gənclər Federasiyasının 1945-ci ilin 29 oktyabrından 10 noyabrınadək Londonda keçirilən konfransında verildi.

Ümumdünya Gənclər Günü MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq, Azərbaycanda qeyd edildi.

### Ömrün bahar ovqatı...

Bu gün yenə onlarındır. Ömrün bahar ovqatında arzu və ümidindən xəyallarına qoşa qanad verib gələcəyə yol gedən hər gəncin yəqin ki, ən böyük istəyi ona inamla baxılmasıdır. Azərbaycan xalqının və dövlətinin də öz gənclərinə, onların sevgisinə, hünərinə, biliyinə, bacarığına, əzmkarlığına etimadı sonsuzdur. Bu inamı, etimadı öz əməlləri ilə doğruldan gənclərimiz müxtəlif ixtisaslar üzrə təhsil alır, ayrı-ayrı sahələrdə çalışır, Azərbaycanın tərəqqisi naminə səy göstərirlər. Ümumdünya Gənclər Günündə belə bacarıqlı və işgizar gənclərimizdən ikisi ilə həmsöhbət olduq.

Hər ömür bir hekayədir. Qədərini biz müəyyənləşdirməsək də, onu mənalandıran, "oxunaqlı" edən bizik. Həmsöhbətlərim də öz uğur hekayələrini danışırlar.



Oxçu Şahmuradov




Orxan Salmanov

### Uğurun bir addımlığından geri qayıtmaq olmaz...

Oxçu Şahmuradov 1990-cı il mayın 11-də Rusiya Federasiyasının Omsk vilayətində dünyaya göz açıb. Valideynləri əslən zəngilanlı idilər. 1993-cü ilin martında Zəngilana döndülər. Ancaq erməni silahlı qüvvələri çoxları kimi, Oxçunu da dədə-baba yurdunda yaşamağa, boya-başa çatmağa qoymadılar. Zəngilan işğal edildi. Üç yaşlı Oxçu da ailə üzvləri ilə birlikdə evlərini tərk etmək məcburiyyətində qaldı. O ağır günlərin ağrıları balaca Oxçunun yaddaşına ata-anasından eşitdiyi acı xatirələrlə həkk oldu.

Qaçqın düşdükdən sonra Bakı şəhəri Suraxanı rayonunun Əmircan qəsəbəsindəki yataqxanada məskunlaşdılar. Oxçu idmanla beş yaşından məşğul olmağa başladı. 1997-ci ildə 87 saylı orta məktəbə daxil oldu. On iki yaşınadək idmanın karate növü ilə məşğul oldu, mükafatlara layiq görüldü. Aldığı zədə Oxçunu bir müddət karatedən uzaqlaşdırsa da, idmandan ayıra bilmədi. Valideynləri sağlamlığı bərpa olunana qədər tennislə məşğul olmasını məsləhət gördülər. Sonra atasının istəyi ilə boksla məşğul oldu.

Orta məktəbdə oxuyanda artıq idman sevdası digər fənlərə həvəsini ötüb keçmişdi. Ancaq atası ona başa salırdı ki, insan oxuduqca, savadlı, məlumatlı olduqca mənəvi cəhətdən daha güclü olur.

2004-cü ildə 14 saylı Bakı peşə liseyinə qəbul oldu. 2007-ci ildə orada kompüter operatoru ixtisası üzrə təhsilini başa vurdu. On səkkiz yaşı olanda atasını itirdi. Altı ay keçməmiş, atasının ayrılığına heç alışmamış anası vəfat etdi. Oxçu həm özündə dözüm tapıb həyatına davam, həm də on altı yaşlı bacısına himayədarlıq etməli oldu. Oxçu Şahmuradov o günləri belə xatırlayır: "Həyatımın çətin günlərində əmin oldum ki, hələ uşaq yaşlarımdan atam həyat yolumu düzgün istiqamətləndirib. İdman mənə mənəvi güc verdi və üzərimə düşən məsuliyyətin öhdəsindən gələ bildim. Bacımın on səkkiz, mənim iyirmi yaşım olanda, 2009-cu ildə hərbi xidmətə çağırıldım. Onda bacım oxuyurdu. Dayımgil ona himayə durdular, gözüm arxada qalmadı. Mən Murovda manqa komandiri kimi xidmət etdim. Əsgərlik də çox şeylər öyrətdi. Vətənə uğurla xidmət etdik".

2011-ci ildə hərbi xidmətini başa vurub evə döndükdən sonra bir neçə yerdə işlədi. Sonradan imtahan verib SOCAR-TTSİ Təlim tədris mərkəzinə qəbul olundu. Təhsilini bitirdikdən sonra öz ixtisası üzrə Nəzarət Ölçü Cihazları və Avtomatika üzrə çilingər kimi SOCAR NQTT Dəmir-Beton Məmulatları İdarəsi bölümündə işə başladı. Artıq dörd ildir çalışdığı bu kollektivə doğmalaşıb. Eyni zamanda, idmançı kimi də fəaliyyətini uğurla davam etdirir. O, Karate Do - Qara kəmər 2-ci dan sahibi, Azərbaycan kuboku çempionatının yeniyetmələr arasında keçirilən yarışın, kikboks üzrə dünya və Avropa, boks üzrə "Neftçi" çempionları, Bakı birincisi, Free Fighting üzrə Avropa çempionu, yüngül atletika üzrə respublika çempionu, 2-ci dərəcəli idman ustası, kapoeyra üzrə dördqat respublika çempionu, Azərbaycan kuboku çempionu. Dünya 3-cüsüdür. Yaşıl-ağ kəmər sahibi, 1-ci dərəcəli idman ustası, 1-ci dərəcəli idman hakimidir. Kapoeyraya marağı uşaqlıq illərində "Ən güclülər" filminə baxdıqdan sonra yaranıb. 2006-cı ildən həmin idman növü ilə məşğuldur. İndi o, Azərbaycan Kapoeyra Federasiyası 2-ci dərəcəli idman hakimi, Dünya kapoeyra Federasiyası 3-cü dərəcəli idman hakimi, Azərbaycan Kapoeyra Federasiyasının müəllimi və Storm Kapoeyra İdman klubunun rəhbəridir. Hazırda rəhbərlik etdiyi klubda 60-dan çox idmançı fəaliyyət göstərir. Tələbələri arasında respublika və dünya çempionları var.

Oxçu Şahmuradov deyir: "Məni ruhdan salmaq asan deyil. Məqsəd varsa, hədəflərimi müəyyənləşdirir, sonuna qədər gedirəm. Mənim həftəlik və gündəlik planlarım olur. Əgər o planlara riayət edirəmsə və hər şey öz yolunda gedirsə, vaxtdan şikayətim olmur. Hər gün işdən sonra məşqlərə gedirəm. İdman mənim üçün həm də hobbidir. Çünki idmanla məşğul olmaqdan, tədris etməkdən, gənclərə düzgün yol göstərməkdən zövq alıram. Boş vaxtlarım adətən, bazar günləri olur. Asudə saatlarımı ailəmə, bir yaşına çatmamış oğluma həsr etməyi sevirəm".

Oxçu Şahmuradov üzünü Azərbaycandan kənara çıxan həmyerlilərimizə tutub onu da söylədi ki, indi bəzi gənclərimiz şikayətlənir, iş yoxdur, yaxud qayğıları çoxdur. Torpağı sevmək lazımdır. Çünki bura vətəndir. Gedənlər nə vaxtsa geri dönmək istəyəcəklər. Gənclərə arzum budur ki, heç vaxt ruhdan düşməsinlər. Məqsədlərini, hədəflərini müəyyənləşdirsinlər və unutmasınlar ki, onlara çatmamış ruhdan düşmək, geri çəkilmək uğurun bir addımlığından geri qayıtmaqdır..."

### Azərbaycan gəncləri çox istedadlı və vətənsevərdirlər

Orxan Salmanov isə 1992-ci ildə Sumqayıt şəhərində dünyaya gəlib. Həmin şəhərdə əvvəlcə 17, sonra 23 saylı məktəblərdə oxuyub. Məktəb illərində dəfələrlə olimpiada qalibi oldu. 2009-cu ildə məktəbi fərqlənmə ilə bitirib. Azərbaycan Dövlət Neft-Sənaye Universitetinin (ADNSU) neft-qaz mühəndisliyi fakültəsində prezident təqaüdçüsü olan tələbə kimi təhsil almağa başlayıb. 2010-cu ildə Böyük Britaniyanın Aberdin Universitetində neft-qaz mühəndisliyi üzrə bakalavr, sonra magistr təhsili alıb. Həmin universitetdə Azərbaycan Cəmiyyətinin yaranmasında və tədbirlərin keçirilməsində yaxından iştirak edib. 2015-ci ildən SOCAR KQİT-də iş fəaliyyətinə maili quyular üzrə mühəndis kimi başlayıb. İndi həmin idarənin texniki şöbəsinin rəis müavini vəzifəsində çalışır. İşlə bərabər təhsilini davam etdirir. Georgio Washington Universitetində layihələrin idarə olunması üzrə təhsil alıb, magistr sertifikatına yiyələnib. O həm də ADNSU-da neft-qaz quyularının qazılması üzrə doktorantura pilləsində təhsil alır.

Orxan Salmanov planlarından danışmağı o qədər də xoşlamır. Deyir: "Düşünürəm ki, əgər bu mənim planımdırsa, tam yerinə yetəndən sonra hamı bilməlidir. Bir neçə adamdan və hətta bildiyim şeylər barədə də məsləhət alıram. Bütün məsləhətləri götür-qoy edirəm, özüm üçün fikir formalaşdırıram. Son məqsədi, hansı istiqamətdə necə hərəkət etməyimi özüm müəyyənləşdirirəm".

Özünü uğurlu adam sayır. Müəyyən həddə çatanda yorulduğunu, ruhdan düşdüyünü hiss edəndə də bu halın uzun sürməsinə yol vermir. Düşünür, yol axtarır. Orxan Salmaov deyir ki, hər bir gəncin məqsədi olmalıdır və ona doğru getməlidir. O, düşünür ki, məqsəd idarəetmədə olduğu kimidir, yəni, bir nöqtəyə böyük məqsəd qoyuruq, ona çatmaq üçün hansı yollardan keçəcəyimizi, yəni, kiçik hədəflərimizi müəyyənləşdiririk. Fikrimizdə tutduğumuz kimi, yolumuz düz xətt üzrə getməyə də bilər. Yəni, kiçik məqsədlər böyük məqsədə aparan yollarda dəyişə bilər. Əsas ruhdan düşməmək, davam etməkdir.

Bəzən gənclər başa düşülmədiklərindən şikayətlənirlər. Orxanın bu fikrə də öz münasibəti var. Deyir ki, ola bilər, izahı yaxşı vermirlər: "İzah normal veriləndə başa düşülməmək problemi yaranmır".

Azərbaycan gənclərinin çox qabiliyyətli, istedadlı və vətənsevər olduğunu vurğulayan Orxan qürurla xaricdə təhsil aldığı illəri xatırlayır: "Bizim gənclər hətta birinci kursdan öz istedadlarını, bacarıqlarını, fəallıqlarını göstərirlər. Oxuduqları universitetlərdə Azərbaycan cəmiyyəti yaradır, birlikdə tədbirlərə qatılır, bir-birinə dəstək olurlar. Biz də universitetdə və şəhərdə tariximiz, ölkəmizdə baş vermiş soyqırımlar barədə məlumatlar verirdik. Yaxud Azərbaycanın milli bayramlarını orada keçirməklə ölkəmiz haqqında fikir formalaşdırmağa çalışırdıq. İnsan harada yaşayırsa, yaşasın vətəninə bağlıdır. Azərbaycandan xaricə təhsil almağa, işləməyə və ya səyahətə gedən gənclərimizə məsləhətim odur ki, sərhədi keçən kimi buralı olduqlarını unutmasınlar. Hər birimiz vətənimizin təbliğatçısı olmalıyıq".

**Zöhrə FƏRƏCOVA,**
**"Azərbaycan"**

# Bakının yeraltı yolları insanların rahatlığına xidmət edir









Bakı metrosunu çox vaxt yeraltı şəhər adlandırırlar. Vaxtilə cəmi 5-6 stansiyası olanda Bakı metrosu haqqında bu sözləri gözəl səsləndiyi üçün deyiblər. Bu gün isə metromuz həqiqətən yeraltı şəhəri xatırladır. Gələcəkdə Bakı Metropoliteni daha geniş şəbəkəyə malik olacaq.

Yaxın Şərqdə sayca ilk, keçmiş SSRİ-də isə beşinci olan Bakı Metropoliteni artıq 51 ildir paytaxtın sakinlərinə və qonaqlarına xidmət edir. Hazırda onun yeraltı xətləri 36,6 kilometrə bərabərdir. Bu məsafənin 22,3 kilometri ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə tikilib.

Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində ölkənin həyatında mühüm rol oynayan bu nəqliyyat növü getdikcə inkişaf edir. Dövlət başçısının sərəncamı ilə təsdiq olunmuş Bakı Metropoliteninin konseptual inkişaf sxemi müəyyən edilib və bununla metropoliten yeni inkişaf mərhələsinə qədəm qoyub. Metronun davamlı fəaliyyətinin təmin edilməsi, yeraltı xətlərin inkişafı üçün müvafiq dövlət proqramı icra olunmaqdadır. Bütün bunlar bakılıların və paytaxtın qonaqlarının rahatlığına, təhlükəsiz gediş-gəlişinə, onların vaxtlarının qənaətinə şərait yaradır.

*"Azərbaycan"*
*Foto Ağaəli MƏMMƏDOVUNDUR*

## "Mir" Dövlətlərarası Teleradio Şirkəti Azərbaycan Milli Nümayəndəliyi təkliflər sorğusu elan edir

"Mir" Dövlətlərarası Teleradio Şirkəti Azərbaycan Milli Nümayəndəliyi yeni HD formatlı 2 komplekt PXW-400 kamera, 2 komplekt montaj avadanlığı və HD formatlı ötürücü və qəbuledici avadanlığın satın alınması məqsədi ilə təkliflər sorğusu elan edir.

Maraqlanan təşkilatlar təkliflərini 14 noyabr 2018-ci il tarixdə saat 18:00-a qədər "Mir" Dövlətlərarası Teleradio Şirkəti Azərbaycan Milli Nümayəndəliyinin Tender komissiyasına təqdim edə bilərlər.

Tender zərfləri 15 noyabr 2018-ci il tarixdə saat 12:00-da Tender komissiyası tərəfindən açılacaq.

**Əlaqələndirici şəxs: Əliyev İdayət Əbdüləhəd oğlu**
**Tel.: (+99470) 605-55-55**

*Tender komissiyası*

İqtisadi xəbərlər

## Sınaqda olan pambıq sortlarının yığımı yekunlaşır

Bitki Sortlarının Qeydiyyatı və Toxum Nəzarəti üzrə Dövlət Xidmətinin müvafiq sort-sınaq məntəqələrində yeni pambıq sortlarına aid sort-sınaq işlərinin aparılması ilə bərabər pambığın istehsalat əkinlərinə də geniş yer verilir.

Salyan Dövlət Sort-Sınaq Məntəqəsində (DSSM) pambıq bitkisinə aid 19 yerli və xarici sortdan ibarət sort-sınaq işləri görülüb. Sortlar üzrə ayrı-ayrılıqda fenoloji müşahidələr aparılıb, məhsuldarlıq göstəriciləri təyin edilib və kimyəvi analiz aparmaq üçün nümunələr Bakı Kimya Texnoloji Laboratoriyasına göndərilib. Məntəqədə UPOV (Yeni Bitki Sortlarının Mühafizəsi haqqında Beynəlxalq Konvensiya) metodikasına uyğun olaraq pambıq sortlarının 41 xüsusiyyəti üzrə qiymətləndirmə işləri yerinə yetirilərək fərqlilik, oxşarlıq və sabitlik əlamətləri müəyyən edilib.

Bundan başqa, Salyan DSSM-də 14 hektar sahədə pambıq becərilib və 38 ton məhsul əldə edilib. Orta məhsuldarlıq məntəqə üzrə 27,5 sentner olub. Ağdam Dövlət Sort-Sınaq Məntəqəsində isə 18 hektar sahədə pambıq becərilib və 52,2 ton məhsul toplanıb. Orta məhsuldarlıq məntəqə üzrə 29 sentner təşkil edib. Kürdəmir Pambıq Toxumu üzrə Sınaq Məntəqəsinə gəldikdə, burada cari ildə 30 hektar sahədə pambıq becərilib. İndiyədək sahədən 61 ton məhsul yığılıb ki, bu da 20 sentner məhsuldarlıq deməkdir.

Bitki Sortlarının Qeydiyyatı və Toxum Nəzarəti üzrə Dövlət Xidmətinin qeyd olunan sort-sınaq məntəqələrində pambıq yığımı yekunlaşmaq üzrədir.

## Bu il ölkəyə 138,9 min ton mineral gübrə gətirilib

"Aqrolizinq" ASC şum, səpin və becərmə işlərinin həyata keçirilməsi zamanı aqrar sektorun mineral gübrələrə olan tələbatının ödənilməsini və müvafiq qaydalara uyğun satışını daim diqqət mərkəzində saxlayır.

ASC-nin şöbə müdiri Musa Hüseynov AZƏRTAC-a bildirib ki, bitkiçilikdə intensiv inkişafın təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında Prezidentin 2018-ci il 2 mart tarixli sərəncamına əsasən, satış qiymətinə tətbiq edilən güzəştin yuxarı həddinin mineral gübrələr üçün 50 faiz, pestisidlər üçün isə 5 dəfə artırılması məhsul istehsalçıları tərəfindən razılıqla qarşılanıb.

O həmçinin qeyd edib ki, qeyri-neft sektorunun əsasını təşkil edən kənd təsərrüfatının inkişafı, iri taxılçılıq təsərrüfatlarının, aqroparkların yaradılması, ehtiyatda olan torpaq sahələrinin dövriyyəyə qaytarılması, tütünçülük, baramaçılıq, çəltikçilik, üzümçülük və sair sahələrin inkişafına dair dövlət proqramlarının icrası ilə bağlı fermerlərin mineral gübrələrə tələbatı da artıb: "Bu tələbatı nəzərə alaraq, ASC tərəfindən cari ildə 178 min ton gübrə, o cümlədən 120 min ton ammonium nitrat (azot), 20 min ton nitroammofoska, 30 min ton ammofos, 4 min ton karbamid, 2 min ton ammonium sulfat, 2 min ton kalium sulfat gübrələrinin alınması üçün müqavilələr bağlanıb və 138,9 min ton mineral gübrələrin ölkəyə gətirilməsi təmin olunub. Təkcə cari ilin müvafiq dövründə 126 min, o cümlədən 66,5 min ton ammonium nitrat (azot), 21,9 min ton nitroammofoska, 25,6 min ton ammofos, 10,1 min ton karbamid, 0,06 min ton kalium sulfat, 1,4 min ton ammonium sulfat, 0,5 min ton superfosfat gübrələrinin güzəştli satışı həyata keçirilib. Ümumiyyətlə, bu il 109 milyon manatlıq 178 min ton müxtəlif növ mineral gübrələrin alınması üçün müqavilələr bağlanıb".

## "Made in Azerbaijan" brendinin beynəlxalq bazarlarda təşviqi üçün təlim keçirilib

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzinin təşkilatçılığı ilə "Made in Azerbaijan" brendinin beynəlxalq bazarlarda təşviqi üçün "PR və kommunikasiya strategiyasının hazırlanması" mövzusunda təlim keçirilib.

PR və kommunikasiya üzrə mütəxəssis Azər Nəzərovun apardığı təlim çərçivəsində ixracyönümlü məhsullar üçün düzgün PR və kommunikasiya strategiyasının hazırlanması, milli və yerli məhsulların brendləşməsi, doğru hədəf auditoriyasının seçilməsi, effektiv kommunikasiya alətləri və mexanizmlərindən danışılıb. "Bir Pəncərə" İxraca Dəstək Mərkəzinin meneceri Nicat Hacızadə isə bildirib ki, bu təlim vasitəsilə "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi Azərbaycanda həyata keçirilən ixrac missiyalarının keyfiyyətinin artırılması istiqamətində ixracatçı sahibkarlar maarifləndirilir: "Layihə çərçivəsində ixracatçı sahibkarlar PR və kommunikasiya sahəsində, eyni zamanda, xarici ticarətdə qəbul olunmuş PR strategiyalar haqqında yeni biliklər qazanacaqlar. Xüsusilə Azərbaycanın ixracatında "Made in Azerbaijan" brendi ilə istehsal olunan milli və yerli məhsulların xarici bazarlarda daha rəqabətqabiliyyətli olması və xarici müştərilərə məhsulların peşəkar formada çatdırılması üçün PR və kommunikasiya strategiyasının hazırlanması təlimi mühüm əhəmiyyətə malikdir".

Təlimdə dövlət və özəl qurumların PR və kommunikasiya mütəxəssisləri, sahibkarlar iştirak ediblər.

## İrandan Azərbaycana narkotik maddə keçirmək istəyən şəxs saxlanılıb

Noyabrın 6-da saat 18:00 radələrində Dövlət Sərhəd Xidməti (DSX) tərəfindən keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində Biləsuvar dövlət sərhədindən buraxılış məntəqəsində İran İslam Respublikasından Azərbaycan Respublikasına gələn İran vətəndaşı 1987-ci il təvəllüdlü Cafari Abouzar Yousefin üzərinə sərhəd və gömrük baxışı keçirilib. Onun ayaqqabısının içərisindən və daxili orqanlarından ümumi çəkisi 440 qram olan narkotik vasitə aşkarlanaraq götürülüb.

Saxlanılan şəxs narkotik vasitələrin qaçaqmalçılığı ilə məşğul olduğunu etiraf edib.

Fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

*"Azərbaycan"*

# Beynəlxalq aləm
## HADİSƏLƏR, FAKTLAR

## Kaliforniyada bar gülləbaran edildi



ABŞ-ın Kaliforniya ştatının Tauzend Ouks qəsəbəsində "Borderline Grill & Bar" barında faciəvi hadisə baş vermişdir. Kollec tələbələrinin yığıncağı zamanı naməlum şəxs atəş açmışdır. Nəticədə 12 nəfər həlak olmuş, daha 12 adam yaralanmışdır. Ölənlər arasında yerli şərifin müavini də var. İlkin məlumata görə, o, cinayətkarın qarşısını almağa cəhd edərkən həyatını itirmişdir.

Barın yerləşdiyi Murpark-Roud küçəsi mühasirəyə alınmışdır. Hadisə yerində Federal Təhqiqatlar Bürosunun terrorizmlə mübarizə qrupu işləyir.

Şahidlər bildirmişlər ki, naməlum kişi bara yaxınlaşaraq tapança çıxarmış və adamları atəşə tutmuşdur. Onun 30-a yaxın güllə atdığı bildirilir.

## Putin Trampla Argentinada görüşəcək



Rusiya və ABŞ prezidentləri Vladimir Putin və Donald Trampın Argentinada keçiriləcək G20 sammitində görüşü barədə razılaşma əldə olunmuşdur. Bu barədə "RİA Novosti" agentliyi xəbər verir.

Məlumatı Rusiyanın xarici işlər naziri Sergey Lavrov təsdiqləmişdir. Lavrov jurnalistlərin suallarını cavablandırarkən məsələ ilə əlaqədar demişdir: "Belə bir razılaşma mövcuddur. Mənim digər informasiyam yoxdur. Bunu Moskva və Vaşinqton artıq təsdiq etmişdir".

G20 sammiti 30 noyabr-1 dekabrda Buenos-Ayresdə keçiriləcək.

## Əfqanıstanda seçkilər zamanı 56 nəfər həlak olub



Əfqanıstanda ötən ayın 20-də başlamış seçkilərin üç günü ərzində 56 nəfər həlak olmuşdur. Bu barədə BMT yanında Əfqanıstana humanitar yardım missiyası (UNAMA) məlumat vermişdir.

Terror aktlarında və toqquşmalarda 379 nəfər zərər çəkmişdir. Seçkilərdən əvvəlki altı ay ərzində 500 nəfər həlak olmuş, yaxud yaralanmışdır. 245 nəfər oğurlanmışdır.

Beynəlxalq məhkəmə normalarına əsasən, seçki məntəqələrinə və mülki şəxslərə hücum hərbi cinayət sayılır. "Taliban" hərəkatı seçkilər zamanı hücumlar təşkil etməklə seçicilərin məntəqələrə gəlməsinə maneçilik törətmişdir.

"TOLO News" telekanalı xəbər verir ki, təhlükəsizlik qüvvələri xarici qoşunların dəstəyi ilə ölkənin şimal-şərqində yerləşən Bağlan əyalətində "Taliban"ın 16 silahlısını məhv etmişdir.

Əyalətin polis idarəsinin rəisi Əkrəmuddin Sarenin dediyinə görə, asayiş keşikçiləri rayonların birində dördgünlük əməliyyat keçirmişlər. Əməliyyata quru və hava qoşunları cəlb olunmuşdur. Azı 19 talibin yaralandığı bildirilir.

## Peruda uşaq oğruları bandası ifşa olundu



Peruda keçirilmiş polis əməliyyatı zamanı uşaq alverçiləri bandası ifşa edilmişdir. Bu barədə BBC xəbər verir.

Arekipa şəhərində təxminən 500 polis əməkdaşının cəlb olunduğu əməliyyat zamanı 14 nəfər, o cümlədən polis idarəsinin sabiq baş direktoru Raul Bezerra həbs edilmişdir.

Məlumata görə, banda yoxsul qadınları öz övladlarını satmağa vadar etdikdən sonra fırıldaqçılar uşaqları üçüncü şəxslərə təhvil verməklə xeyli pul qazanırdılar. Əməliyyatın gedişində beşaylıq körpə xilas edilmişdir.

Hazırda uşaqların xarici ailələrə, yaxud insan orqanları ilə məşğul olan cinayətkarlara satılması ilə bağlı təhqiqat aparılır. Saxlanılanlar arasında bir ginekoloq və bir pediatr da var.

Bundan əlavə, bir neçə kənd taliblərdən təmizlənmişdir.

## ABŞ qitələrarası ballistik raketi sınaqdan keçirdi



ABŞ-da "Minuteman III" qitələrarası ballistik raket uğurla sınaqdan keçirilmişdir. Bu barədə "Assoşieyted Press" agentliyi xəbər verir.

Sınaq Kaliforniyada Vanderberq bazasında həyata keçirilmişdir. Raket Sakit okeanda nəzərdə tutulmuş hədəfi vurmuşdur. Sınağın məqsədi sistemin dəqiqliyini və etibarlılığını yoxlamaq idi.

ABŞ hərbi hava qüvvələri komandanlığı raket sınağının dünyada baş verən hadisələrlə əlaqəli olmadığını qeyd etmişdir.

Xatırladaq ki, "Minuteman III" raketinin iyul ayında test buraxılışı uçuş zamanı anomaliya aşkarlandığına görə yarımçıq qalmışdı.

ABŞ hərbi hava qüvvələri bu tipli raketlərdən 1970-ci ildən bəri istifadə edir və onları müntəzəm olaraq modernləşdirir.

## Ölkə ərazisində intensiv yağış, qar yağacaq

Sinoptiklər ölkə ərazisində qeyri-sabit və yağıntılı hava şəraiti ilə bağlı xəbərdarlıq ediblər.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a bildiriblər ki, Bakıda və Abşeron yarımadasında arabir yağışlı hava şəraiti noyabrın 9-u gündüzədək davam edəcək. Gecə və səhər yağışın bəzi yerlərdə leysan xarakterli intensiv olacağı ehtimalı var.

Ölkə ərazisində noyabrın 11-i günün ikinci yarısından 13-dək hava şəraitinin qeyri-sabit keçəcəyi, arabir yağış yağacağı gözlənilir. Yağışın bəzi yerlərdə intensiv olacağı, dağlıq rayonlarda qar yağacağı proqnozlaşdırılır. Havanın temperaturu ötən günlərlə müqayisədə 3-5° enəcək. Çaylarda sululuğun artacağı, bəzi dağ çaylarında qısamüddətli daşqın olacağı bildirilir.

## Respublika çaylarında suyun səviyyəsi azalıb

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin verdiyi məlumata görə, Böyük Qafqazın Quba-Xaçmaz bölgəsi çaylarında sululuq ongünlük normanın 80-110, Kiçik Qafqazın çaylarında 70-140, Lənkəran-Astara çaylarında 100-150 faizini təşkil edir.

Departamentdən AZƏRTAC-a bildiriblər ki, noyabrın 8-də Kür çayının Qıraqkəsəmən məntəqəsində suyun səviyyəsində 2 santimetr azalma müşahidə olunub. Hazırda məntəqədə su sərfi saniyədə 165 kubmetr olmaqla ongünlük normanın 88 faizini təşkil edir.

Qanıx çayının Əyriçay məntəqəsində suyun səviyyəsində 2 santimetr azalma qeydə alınıb. Hazırda məntəqədə su sərfi saniyədə 62 kubmetr təşkil etməklə ongünlük normanın 74 faizinə bərabər olub.

Noyabrın 8-də Kür çayının aşağı axınında suyun səviyyəsi azalıb. Belə ki, Kür çayının Şirvan məntəqəsində 2, Bankədə 6, Araz çayının Novruzlu məntəqəsində 12 santimetr azalma qeydə alınıb. Lakin suyun səviyyəsi Kür çayının Surra məntəqəsində 4, Salyanda isə 2 santimetr artıb.

Hazırda Surra məntəqəsində suyun səviyyəsi 338, Şirvanda 187, Salyanda 137, Bankədə 175, Araz çayının Novruzlu məntəqəsində isə 50 santimetrə bərabərdir.

## ALLAH RƏHMƏT ELƏSİN!

SOCAR-ın prezidenti Rövnəq Abdullayev və şirkətin rəhbərliyi geologiya və geofizika məsələləri üzrə vitse-prezident Bəhram Hüseynova bacısı

**MEHRİBAN ŞİRİNOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Teatr Xadimləri İttifaqının sədri Azər Paşa Nemətov xalq artisti

**AMALYA PƏNAHOVANIN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova və komitənin kollektivi xalq artisti

**AMALYA PƏNAHOVANIN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---

Lənkəran Ağır Cinayətlər Məhkəməsinin sədri və məhkəmənin kollektivi Quba Rayon Məhkəməsinin sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Xəqani Tağıyevə bacısı

**ULDUZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8398
Sifariş 3298